www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 avqust 2016-cı il Bazar ertəsi № 190 (6511) Qiyməti 60 qəpik

Xəbər

## Bərdədə 21 yaşlı qadın özünü asdı

yazısı səh.2-də

Gündəm

### Ermənistan hakimiyyətində güc və nüfuz müharibəsi - hədəfdə baş nazir Ovik Abramyandır



Düşmən ölkə parlament üsul-idarəçiliyinə keçid ərəfəsində iqtisadi-siyasi təlatümlər yaşayır...

yazısı səh.7-də

### Yoxsul yaşayan prezidentlər-Hendrik də Elçibəy kimi...

yazısı səh.6-da

### Müsavat aksiyalar keçirmək anonsu verdi

yazısı səh.9-da

### Vəkili Əli İnsanovla görüşdü: "Sakit və nikbindir"

yazısı səh.2-də

### Müxalifət referendumla bağlı dialoqa hazırdırmı...

yazısı səh.9-da

### Novxanı çimərliyinə gedəni yeni, bənzərsiz üsullarla soyurlar

yazısı səh.12-də

### Rusiya Türkiyəyə çarter reyslərinə qoyulan qadağanı götürüb

yazısı səh.2-də

### "Lənkəranski"ni satan "köstəbək" kimdir?

yazısı səh.13-də

### Qasırğa, sel, dolu bölgələrə ciddi zərər vurdu

yazısı səh.15-də

### Özbəkistan prezidenti xəstəxanaya yerləşdirilib

yazısı səh.2-də

### Bakı-Quba yolunda yük maşını yandı

yazısı səh.14-də

### Azərbaycanda uşaqlar arasında göz xəstəlikləri xeyli artıb

yazısı səh.15-də

## Amerika - Türkiyə münasibətlərinin ilginc pərdəarxası

# "GÜLƏN İŞİ"NDƏN QARABAĞADƏK - BÖYÜK BAZARLIQ BAŞLADI

Baydenin Ankara mesajlarının Azərbaycana da dəxli var; hər iki düyünü ABŞ-ın yeni prezidenti açacaq; bölgənin taleyində həlledici dönəm başlayıb; sərt anti-Putinçi olan Hillari Klinton Ağ Evə sahiblənərsə, Türkiyə-Amerika münasibətləri yeni keyfiyyət mərhələsinə adlayacaq, çünki...




yazısı səh.8-də

## General Çovdarova "peredaça" daşıyan adamı bilindi - "Broker Əbülfəz"

Gömrükdə iş adamlarını soymaqla məşhurlaşan "Broker" MMC-nin rəhbəri Əbülfəz Məlikovun həbsdəki generalla əlaqələri haqda şok məlumatlar yazısı səh.4-də



### Milli Şura Cahangir Hacıyevin pullarına "qarmaq atır"

yazısı səh.3-də



### Vasif Talıbovu müxalifətçilərə sevdirən məqam

yazısı səh.4-də



*Əkrəm Həsənov:*

### "Bank-kredit sisteminin bugünkü vəziyyətinin əsas günahkarı Mərkəzi Bankdır"

yazısı səh.10-da



## Tələbələr üçün təhsil kreditləri dayandırıldı

**Yeni dərs ilinin başlanması tələbələr üçün yeni qayğılar gətirir. Xüsusilə bu il ödənişli əsaslarla I kursa qəbul olunan tələbələrin təhsil haqqını sentyabrda ödəmələri ilə bağlı şərt qoyulub.**

Gəlirləri azalan və ya işsizlikdən əziyyət çəkən ailələrin isə həmin məbləğləri ödəmələri mümkün deyil.

Əvvəlki illərdə aztəminatlı ailələr övladlarının təhsilini davam etdirməsi üçün banklardakı istehlak və ya tələbə kreditlərindən istifadə edirdilər. Son günlərdə bankların kreditləşməni dayandırması onların vəziyyətini çətinləşdirib.

Fins.az-ın araşdırması göstərib ki, indi banklarda tələbələr üçün nəzərdə tutulan bütün məhsulların satışı dayandırılıb.

"Turanbank"dan bildiriblər ki, tələbə kreditlərinin verilməsi dayandırılıb. Məhsulun satışının nə zaman bərpa olunacağı bəlli deyil.

Ötən ilə qədər tələbə krediti verən "Bank of Baku", "AGBank" da bu xidməti tələbələrin üzünə bağlayıb.

"Accessbank", "AFB bank", "Atabank", Azərbaycan Beynəlxalq Bankı, "Bank Standart"da isə ümumiyyətlə belə bir xidmət olmayıb. Ancaq istehlak kreditlərinin tərkibində tələbələrə də kredit ayrılıb.

"Bank Standard"dan bildiriblər ki, bu günədək sırf təhsil kreditləri ayrılmayıb: "Müştərilərə yalnız bir neçə proqram çərçivəsində istehlak kreditləri təqdim olunub. Müştərilər həmin istehlak kreditlərini sərf etməkdə müstəqil olduqları üçün bank tərəfindən həmin kreditlərin təhsil, yaxud başqa məqsədlərə sərf olunması barədə heç bir statistika aparılmayıb".

"Maarifçi" Tələbə Kredit Fondundan isə sorğuya cavab verilməyib.

Adları çəkilən banklarda ("Accessbank" istisna olmaqla) kreditlərin verilməsi dayandırılıb.

Artıq tələbə valideynləri banklardan əllərini üzüb, başqa maliyyə mənbəyi axtarışına çıxıblar.

## AVCİYA referendumla bağlı müşahidəçilərə təlimlərini davam etdirir

**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 26 sentyabr 2016-cı il tarixdə keçiriləcək referendumla bağlı uzunmüddətli müşahidəsini həyata keçirir.**

Assosiasiya həm də 62 üzrə DSK 3000 məntəqədə referendum günü müşahidəni təşkil edəcək. Bununla əlaqədar AVCİYA Seçki Qərargahı regionlarda müşahidəçilərə treninqlərə başlayıb. Şirvan, Hacıqabul, Sabirabad rayonlarından sonra Zaqatala, Balakən və Qax rayonlarında tədbirlər uğurla həyata keçirilib.

Treninqlərdə AVCİYA Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı çıxış edərək assosiasiyanın bu vaxta qədər gördüyü işlər, seçkilərin və referendumların ölkə üzrə müşahidəsi sahəsində qazandığı təcrübə barədə tədbir iştirakçılarına geniş məlumat verib. Daha sonra referendum günü müşahidəçilərin hüquq və vəzifələrini onlara izah edib. Tədbirlərin sonunda müşahidəçilərin sualları cavablandırılıb.

Tədbirlərdə AVCİYA Seçki Qərargahının əməkdaşı Cavid Camalov, AVCİYA-nın regional nümayəndəliklərinin rəhbərləri və rayon koordinatorları iştirak ediblər.

Növbəti tədbirlər sentyabrın 1-dən başlayaraq Gəncə, Göygöl, Daşkəsən, Bərdə,Tərtər və Goranboy rayonlarında keçiriləcək. Daha sonra şimal və cənub regionlarda, Bakı şəhərində tədbirlər davam etdiriləcək.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Amnistiyaya düşən Fərəc Kərimli hələ də məhbusdur

## Natiq Cəfərliyə ailəsi ilə görüş verilmir

**Avqustun 12-də həbs edilən REAL-ın icraçı katibi, iqtisadçı ekspert Natiq Cəfərliyə hələ də ailəsi ilə görüş verilmir. Onunla yalnız vəkilləri görüşə bilirlər. Amma bununla belə, səhhəti normal olan iqtisadçıya aparılan sovqat və yeməklərin qəbulunda problem yaşanmır. Bu barədə qəzetimizə məlumat onun ailə üzvləri tərəfindən verildi.**



Amnistiyaya düşdüyü deyilən, lakin hələ də azadlığa buraxılmayan Müsavat başqanının müavini Fərəc Kərimli ailəsi ilə danışıb. Vicdan məhbusunun atası Raqif Kərimli oğlunun nə vaxt azadlığa çıxacağının hələ də müəmmalı olduğunu bildirdi: "Amnistiya verildiyi ilk günlər Fərəcə dedilər ki, buranın qonağısan, 5-10 gün vaxtın qalır. Amma hələ də o həbsdədir. 14 saylı cəzaçəkmə müəssisəsinə köçürüləndən telefonla tez-tez danışırıq. Avqustun 30-da da görüş günüdür".

Həbsdə olan hüquqşünas Əliabbas Rüstəmovun apelyasiya şikayətinə baxılıb. İnstansiya qurumu hüquqşünasın ilkin qərar olmadan məhkəmə baxışının keçirilməsi ilə bağlı verdiyi şikayəti təmin etməyib.

Bu barədə "Yeni Müsavat"a açıqlamasında A.Rüstəmovun vəkili Yavər Hüseyn məlumat verib: "Apelyasiya Məhkəməsi şikayətimizi təmin etmədi. Məhkəmə qərarı çıxandan sonra səlahiyyətlərim bitdiyi üçün onunla görüşmək imkanım yoxdur. Əliabbas bəy məhkəmədə barəsindəki ittihamları bir daha əsassız hesab etdi. Mən də belə hesab edirəm ki, o ittihamların heç bir hüquqi əsası yoxdur. İş materialları ilə yaxından tanış olan bir şəxs kimi tam məsuliyyətlə deyirəm ki, bu, sifarişli məhkəmə qərarıdır. Növbəti şikayətlərimiz olacaq".

Qeyd edək ki, Ə.Rüstəmov 2014-cü ilin iyununda həbs edilib. "Yasavul" MMC-nin direktoru olan hüquqşünas Cinayət Məcəlləsinin 312.2-ci maddəsi ilə (rüşvət vermə) ilə təqsirləndirilib və 7 il müddətinə azadlıqdan məhrum edilib.

REAL sədri İlqar Məmmədovun isə Ali Məhkəməsindən xəbər yoxdur. O, Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərardan iki ay öncə şikayət versə də, məlum olmayan səbəblərdən müraciətə baxılma müddəti uzadılır.

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova son durumla bağlı bunları dedi:** "Elə bir yenilik yoxdur. Sadəcə olaraq, İlqarın saxlanıldığı 2 saylı cəzaçəkmə müəssisəsində rəisi dəyişiblər. Yəqin ki, qayda-qanunla bağlı yeniliklər olacaq. Avqustun 28-də sonuncu dəfə telefonla əlaqə saxladıq. Vəziyyətinin yaxşı olduğunu dedi. Onu dedi ki, yeni rəis yeniliklər edə bilər və bir həftəlik zəngə qadağa qoyula bilər. Bu həftənin sonu bilinəcək. Vəkilin yaxın günlərdə görüşü də gözlənilir. Həftə sonu da görüş günümüz olacaq. Məhkəməsi ilə bağlı heç nə demirlər. Gün-gündən prosesin baxılma günü uzadılır".

❑ **Cavanşir ABBASLI**

## 7 aya yaxındır komada olan Əli Əliyevin müalicəsi üçün bank hesabları açılıb

**Yeddi aya yaxındır komada olan yazıçı-publisist Əli Əliyevin müalicəsinə maddi yardım göstərilməsi məqsədilə bank hesabları açılıb.**



Əli Əliyev 1946-cı ildə Laçının Oğuldərə kəndində doğulub. Maksim Qorki adına Moskva Ədəbiyyat İnstitutunda, Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) təhsil alıb. 1992-ci ilə, Laçın rayonu işğal olunana qədər Oğuldərə kənd məktəbində ədəbiyyat müəllimi işləyib. Hazırda təqaüdçüdür. Ailəlidir. Altı övladı var. Oğlu İmdad Əlizadə ölkənin tanınmış jurnalistlərindəndir. Əli Əliyev mərhum şair Ağa Laçınlının qardaşıdır.

Əli Əliyev 1993-cü il martın 30-dan mayın 23-nə kimi Laçın və Kəlbəcər rayonları ərazisində erməni mühasirəsində qalıb. Üstündən 20 ilə yaxın vaxt ötəndən sonra, 2012-ci ildə o, mühasirə xatirələrini "54 gün erməni mühasirəsində" adlı kitabında çap etdirib. Əli müəllimin və onunla birgə mühasirədə qalmış 18 nəfərin əzablı günlərindən bəhs edən "54 gün mühasirədə" adlı sənədli film də çəkilib. Ssenari müəllifi telejurnalist Vəsilə Vahidqızı, rejissoru Mirsadiq Ağazadədir.

2016-cı ilin fevral ayının 14-də Əli Əliyev Bakıda məskunlaşdığı uşaq bağçasından çıxıb İsmayıllı rayonunda məskunlaşmış kəndlisinin hüzr mərasiminə gedərkən ağır qəza keçirib. Bakının "Koroğlu" metro stansiyası yaxınlığında yolu keçərkən onu avtomobil vurub. Ağır kəllə-beyin travması alan Əli Əliyev həmin gündən komadadır. Hazırda o, Mərkəzi Kilinik Xəstəxanada müalicə olunur.

Müalicənin xəstəxana şəraitində davam etdirilməsi üçün maddi dəstəyə ciddi ehtiyac yaranıb. Əks halda, koma vəziyyətində olan 70 yaşlı Əli Əliyev xəstəxanadan çıxarılmalıdır. Buna görə də ailəsi Əli müəllimin müalicəsinə maddi yardım göstərilməsi üçün bank hesabları açmaq məcburiyyətində qalıb. Bank hesabları Əli Əliyevin oğlu İmdad Əlizadənin adına açılıb. Yardımı aşağıdakı hesablar vasitəsilə (həm manatla, həm də xarici valyutalarla) həyata keçirmək mümkündür:

Bank Respublika ASC Yasamal filialı

*Kod: 511102*

*VÖEN: 9900001901*

*M/h: AZ80NABZ0135010000000014944*

*SWIFT: BRESAZ22*

*IBAN: AZ94BRES00380194404052957401*

*Xarici valyutalarla:*

*AZ88BRES00381184004052957402 (USD)*

*AZ55BRES00381197804052957403 (EUR)*

*AZ10BRES00381181004052957404 (RUB)*

Qeyd: Yardım kampaniyasında ölkədəki ödəniş terminalları vasitəsilə də iştirak etmək mümkündür. Belə ki, öncə terminalda "Bank xidmətləri"ni, daha sonra "Bank Respublika"nı seçmək və 38019440405 2957401 hesabına ödəniş etmək olar. Bu zaman tələb edilən şəxsiyyət vəsiqəsi nömrəsi qrafasında 15670795 rəqəmləri yazılmalıdır.

Əlaqə telefonu: 050 506 86 90 (İmdad Əlizadə)

## Putin Türkiyə səfərindən imtina etdi

**Rusiya prezidenti Vladimir Putin futbol üzrə Türkiyə və Rusiya yığmaları arasında keçiriləcək yoldaşlıq oyununa getməyəcək.**

«RİA Novosti»nin verdiyi məlumata görə, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

Qeyd edək ki, oyun avqustun 31-də Antalyada keçiriləcək.

## ANS-in qaranlıq efiri açılacaqmı?

**ANS-in bağlanmasından artıq bir ay on gündən də çox zaman keçsə də hələ kanalın aqibətinin necə olacağı bilinmir. Kanalın bağlandığı gündən (18 iyul) bu yana aparılan məhkəmə işləri də bir nəticə verməyib və telekanal rəhbərliyinin iddiaları təmin edilməyib.**

"Yeni Müsavat"a danışan ANS Şirkətlər Qrupunun prezidentinin media müşaviri Mais Məmmədov bildirib ki, kanalın açılması ilə bağlı hər hansı müsbətə doğru yenilik yoxdur: "Hələ ki gözləmə mövqeyindəyik. Hər hansı bir xəbər yoxdur. Yəqin ki, nə isə olsaydı ondan xəbərim olardı. Ümid edirik ki, yaxın zamanlarda şad xəbər eşidəcəyik".

Əldə etdiyimiz məlumata görə, hazırda da kanalın işçilərinin bir qismi şirkətə gedib-gəlirlər.

Qeyd edək ki, ANS bağlandığı ərəfədə telekanalın fəaliyyətinin 1 aylıq dayandırıldığı deyilsə də, sonradan məhkəmə qərarı ilə lisenziyası tamamilə ləğv edildi. Belə ki, iyulun 29-da Bakı Apelyasiya Məhkəməsi ANS TV-nin lisenziyasını ləğv edib. ANS telekanalının rəhbərliyi lisenziyaya xitam verilməsi ilə bağlı qərardan kasasiya şikayəti verib. Şikayət üzrə məhkəmə prosesi sentyabrın 8-də Ali Məhkəmədə hakim Sevda Hüseynovanın sədrliyi ilə keçiriləcək.

ANS Müstəqil Yayım və Media Şirkətinin Milli Televiziya və Radio Şurasına (MTRŞ) qarşı verdiyi iddia üzrə məhkəmə prosesi isə sentyabrın 2-də 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsində hakim Elçin Məmmədovun sədrliyi ilə keçiriləcək.

❑ **Əli RAİS**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# "Əli İnsanovdan imtina edən qərbi azərbaycanlılar..."

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanova üç əlavə maddə ilə yeni cinayət işinin açılması ötən həftənin ən səs-küylü hadisələrindən biri oldu. 11 illik həbs cəzasının bitməsinə 57 gün qalmış sabiq nazirə yenidən cinayət işi açılıb, Kürdəxanıdakı istintaq təcridxanasına köçürdülər.**



Bugünlərdə "Yeni Müsavat" Ə.İnsanovun yerliləri olan bir neçə tanınmış şəxsə sabiq nazirlə bağlı danışmaları üçün müraciət edib. Onlar bu mövzuda danışmaqdan imtina ediblər. Deyiblər ki, mətbuatda adlarının sabiq nazirlə yanaşı çəkilməsini istəmirlər.

**Əslən Qərbi Azərbaycandan olan "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı hesab edir ki, Ə.İnsanova yerliçilik prizmasından yanaşan şəxslərin bu gün onun arxasından çəkilmələri normaldır:** "O şəxslər ki, sizin qəzetə İnsanov barədə danışmaq istəmirlər, onunla yanaşı adlarının getməsini istəmirlər, onlar vaxtilə Əli İnsanovdan bəhrələnən şəxslərdir. Onun yan-yörəsində gəziblər. Təəssüf ki, İnsanovun yan-yörəsi nazir olduğu vaxtlar belə olub, yəni o, yerliçiliyə böyük önəm verib. Əli İnsanov barəsində qərbi azərbaycanlıyam deyə fikir bildirmək olmaz. Bu, bir fəlakətdir, faciədir. Amma onun bu gün başına gələnlər bir insanın, uzun illər həbsxanada yatan bir məhkumun başına gəlir. Məsələlərə bu kontekstdən baxmaq lazımdır. Mən həbsxanadan çıxandan sonra daim deyirdim ki, Əli İnsanovun azadlığa çıxması çətin olacaq. Yəni içərini yaxşı bilirdim. Orada özünü necə apardığından xəbərdar idim. Onun hakimiyyətə qarşı nə qədər sərt, barışmaz və qəzəbli olduğunu da yaxşı bilirdim. İndi görünür ki, hakimiyyət onu tam gözdən çıxarıb. İlkin təəssürat odur ki, Əli İnsanovun qələmini qırdılar. Buna görə də zamanında onun ətrafında fırlananlar artıq mesaj aldılar ki, İnsanov məsələsi bitdi, artıq onun qələmini qırıblar. Güman edirəm ki, belədir. Digər tərəfdən, təbii ki, Əli İnsanov məsələsi çox önəmli hadisədir. Nəinki qərbi azərbaycanlılar, bütün Azərbaycan xalqı bu məsələyə laqeyd yanaşmamalıdır".



**"İlkin təəssürat odur ki, Əli İnsanovun qələmini qırdılar. Buna görə də zamanında onun ətrafında fırlananlar artıq mesaj aldılar ki, İnsanov məsələsi bitib..."**

**Ə.Zeynallı Ə.İnsanov mifinin hələ də qaldığını düşünür:** "Əgər bu mif aradan qalxsaydı, bu gün onun qələmini qırmazdılar. O, hər zaman üçün çox ciddi, barışmaz şəxsdir. 11 il uf demədən cəzasını çəkdi. Amma işin ağır tərəfi odur ki, insanlar məhkum edilirlər, 11 il cəza çəkirlər, sonra heç bir əsas olmadan, sudan-qurudan gətirilən bəhanələrlə haqlarında cinayət işi qaldırılır. Əslində SOS siqnalı burada çalınmalıdır. Bu, bizim hamımızın taleyidir. Hər kəs bu tale ilə qarşılaşa bilər. Azərbaycan həbsxanalarında belə dustaqlar bir neçə dəfə olub. Lamiyə, Eynulla Fətullayev və digərlərini misal çəkə bilərik.

Yəni onlar həbsxanada qala-qala cəzalarının üstünə cəza gəlib. İndi Əli İnsanova əlavə 5 il vermək, onu ölüm hökmünə məhkum etmək deməkdir. Ona görə də ölkənin bütün təbəqələrinin, regionlarının, millətlərinin düşünən insanları bu məsələyə reaksiya verməlidir. Hər kəsi bu aqibətin gözləyəcəyini inkar etmək mümkün deyil. Sən həbsxanada cəzanı tam çəkə bilərsən, amma yenidən səni mühakimə edərlər, hətta ömrünün sonuna qədər orada saxlayarlar. Dəhşətli olan budur. İnsanlar buna reaksiya verməlidir. Yoxsa "Əli İnsanov nazir olub, ölkənin başına oyun açıb" kimi fikirləri önə çəkmək doğru deyil. Onsuz da bunu hamımız bilirik. Amma söhbət indidən gedir. Bir məhkumun taleyi gözlərimizin önündədir. Düşünmək lazımdır ki, insan həbsxanada vaxtı çatana kimi cəza çəkər, amma sonda onu azad etməyə bilərlər. Əli İnsanov kimi".

**Ə.Zeynallı bildirib ki, qərbi azərbaycanlılar hakimiyyətdən qorxduqları üçün İnsanovu açıq müdafiə edə bilmirlər: "Bu gün sabiq nazirdən imtina edənlərin hamısı yumurtadan yun qırxanlardır. Güman edirəm ki, hərə öz yükünü bu dönəmdən salamat keçirmək istəyir. Zamanında onların İnsanovun orbitində fırlanan şəxslər olduqlarını hamımız bilirik. Əli İnsanovla döyüşən biz idik. O, daha çox bizə qəzəbli idi nazir olduğu vaxtlar. Onun başına gələn indiki hadisə qərbi azərbaycanlı olayı deyil. Bir insanın başına gələn dramdır. Burada Cinayət Məcəlləsi, Avropa Məhkəməsinin qərarları, beynəlxalq hüquq pozulur. Biz bunların qarşısını almalıyıq".**

Xatırladaq ki, Ə.İnsanov 2005-ci ilin oktyabrında parlament seçkiləri öncəsi dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib. Sonradan ittiham iqtisadi cinayətlərlə əvəz olunub. Sabiq nazir 2007-ci ilin aprelində rüşvət almaq, vəzifə səlahiyyətlərini aşmaq və bir sıra iqtisadi cinayətlərdə günahlandırılaraq 11 il azadlıqdan məhrum edilib.

Avqustun 24-də 13 saylı cəzaçəkmə müəssisəsində sabiq nazirə CM-in 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) , 234.1 (satış məqsədi olmadan narkotik vasitələri şəxsi istehlak miqdarından artıq əldə etmə) və 317-2.1-ci (cəzaçəkmə müəssisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və istifadəsi) maddələri ilə ittiham elan edilib.

Ə.İnsanov avqustun 24-də Qaradağ Rayon Məhkəməsinin qərarı ilə oktyabrın 23-dək 1 saylı Bakı İstintaq Təcridxanasına etap olunub. Yeni qaldırılmış cinayət işinin istintaqını Qaradağ Rayon Prokurorluğu aparır.

❑ Cavanşir ABBASLI





## Aygün Bəylərin qardaşı qohumunun qətlinə görə tutuldu

**Əməkdar artist Aygün Bəylərin əmisi nəvəsi Elnur Hümmətovun ölümünə görə tutulan şəxslərdən biri müğənninin qardaşıdır. "Report"un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumatda deyilir ki, tutulan şəxslərdən Abbas Hümmətov Aygün Bəylərin qardaşıdır.**

Qeyd edək ki, hadisə üç il əvvəl baş verib. Daxili İşlər Nazirliyinin (DİN) yaydığı məlumata görə, polis və prokurorluq orqanları əməkdaşlarının Bakı şəhər sakini Elnur Hümmətovun 2013-cü il iyunun 16-da itkin düşməsi ilə əlaqədar keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə onun 2013-cü ilin may ayında həmyerliləri Fuad Məmmədzadə, Elmir Alxazov, Abbas Hümmətov, Ramil Əsirov və qardaşı Elnur tərəfindən Xəzər rayonunun Qala kəndi ərazisində boğulma yolu ilə qətlə yetirilib basdırılması müəyyən edilib. E.Hümmətovun meyiti eksqumasiya edilib, qeyd edilmiş şəxslər tutulublar.

# Özbəkistan prezidenti ölüm ayağında, varis kim olacaq?

## İslam Kərimov çox içdiyi üçün xəstəxanaya düşüb

**Özbəkistan prezidenti İslam Kərimovun səhhəti ötən həftənin şənbə günündən etibarən pisləşib. Bu barədə Özbəkistan liderinin qızı Lola Kərimova-Tillyayeva öz İnstagram hesabında məlumat verib. Onun yazdığına görə, səhhəti ağır olan prezident hazırda reanimasiyadadır.**

"Yeni Müsavat"ın xəbərinə görə, İnstaqramdakı son paylaşımında ailə fotosunu yayan Lola Kərimova yazıb ki, son istirahət günlərində atasının səhhətində ciddi problem yaranıb və hazırda reanimasiyadadır: "Onun gələcək durumu ilə bağlı hər hansı proqnoz vermək mümkünsüzdür. Mən insanlara buradan müraciət edirəm ki, şayiələrdən uzaq dursunlar və ailənin şəxsi toxunulmazlıq hüququna hörmət etsinlər. Mən atam üçün dua oxuyan və gözəl istəklər səsləndirən hər kəsə minnətdar olacam".

Özbəkistanın Xalq Hərəkatının lideri Məhəmməd Saleh İslam Kərimovun banket zamanı infarkt olması ilə bağlı öz versiyasını yazıb. Axar.az xəbər verir ki, sözügedən versiya "uzxalqharakati" saytında yer alıb: "26 avqustda Daşkəndin Durmen qəsəbəsində prezidentin iqamətgahında Rio olimpiadasında iştirak edən özbək idmançıların şərəfinə banket təşkil olunub. Köməkçisinin təkidlərinə baxmayaraq, prezident içkiyə ara verməyib. Bir müddət sonra onun halı pisləşib, tədbir yarımçıq saxlanılıb. Prezidentə dərhal ilkin yardım göstərilib və o, Respublika Kardioloji Mərkəzinə çatdırılıb. Həkimlər infarkt faktını təsdiq edib. Tez bir zamanda Özbəkistana Almaniya və İsraildən həkimlər gətirilib.



Prezident 5 gün sağ qala bilsə, ondan sonra səhhəti düzələcək. Amma sağ qalacağı ilə bağlı dəqiq heç nə deyilmir, çünki vəziyyəti ağırdır. Müstəqillik gününü ölkənin baş naziri özü keçirəsi olacaq".

Özbəkistan saytları məlumat yayıblar ki, Kərimov dünyasını dəyişərsə, onun yerinə ölkənin baş naziri Şövkət Mirziyev gələcək. Məlumat üçün deyək ki, Mirziyev Kərimovlar ailəsinə yaxın şəxsdir və hakim elitadakı bütün klanlarla münasibəti yaxşıdır. Fergana.ru saytı yazıb ki, İslam Kərimov vəfat edəcəyi təqdirdə Özbəkistan konstitusiyasına görə hakimiyyət parlamentin sədrinə keçir. "Amma parlament sədri odioz fiqur deyil. Böyük ehtimalla növbəti prezident Mirziyev olacaq" deyə, sayt yazır. Məlumata görə, Mirziyev rusiyalı milyarder Əlişir Usmanovla qudadır.

"Assosiated press" xəbər verir ki, Daşkənddə İslam Kərimovun yerləşdirildiyi xəstəxananın ətrafında polis və hərbçilərdən ibarət təhlükəsizlik kordonu yaradılıb. Kordonun diametri bir neçə kilometrə çatır.

Xatırladaq ki, İ.Kərimov 78 yaşındadır . O, ölkəyə 1989-cu ildən rəhbərlik edir. 2015-ci ildəki seçkilər nəticəsində o, növbəti dəfə prezident seçilib.

Son illər Kərimovun adı dünya mediasında daha çox böyük qızı Gülnarə Kərimova ilə bağlı hallanıb. Atasının onu həbs etməsi, heç kimin bilmədiyi bir yerdə saxlaması, habelə oğlunun Avropa ölkələrindən birinə qaçması... Qərb mətbuatının ən çox yazdığı mövzu olub. Ümumiyyətlə, G.Kərimova da bizneslə məşğul olub. O, ABŞ vətəndaşı Mənsur Məqsudi ilə evli olub. Gülnarənin Mənsurla boşanma xəbəri vaxtilə beynəlxalq qalmaqal yaradıb. Mediada atasının G.Kərimovaya cəza tətbiq etməsi, onu sarayda gizlətməsi, fiziki təzyiqə məruz qoyması da yayılan xəbərlər arasındadır.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016



# Tələbə oğlan ad günündə intihar etdi

## Ölkədə intiharlar şoku

**Hüquq-mühafizə orqanlarından APA-nın Şəki-Zaqatala bürosuna verilən məlumata görə, avqustun 29-da saat 06:30 radələrində rayonun Oxut kəndində, kənd sakini 1998-ci il təvəllüdlü Samran Vüqar oğlu Süleymanzadənin meyitini valideynləri tapıblar.**

Hadisə ilə bağlı azvision.az-a danışan Şəkinin Oxut kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi və ailənin yaxın qohumu Oruc Əhmədov bildirib ki, Gəncə Dövlət Aqrar Universitetinin 2-ci kurs tələbəsi olan 18 yaşlı Samran ad günündə canına qıyıb.

"Samran ikinci kursda təhsil alırdı. O, çox normal ailədə böyüyüb. Bacısı da bu il universtetə qəbul olub. Anası evdar xanımdır. Atası isə Moskvada yaşayır. Ailədə hər şey qaydasında olub, maddi çətinlikləri olmayıb.

Dünən Samranın ad günü idi. Axşam dostları ilə kafedə ad gününü qeyd edib. Kefi də yaxşı olub. O, ad gününü qeyd edəndən sonra axşam evə gəlib. Anası və bacısı ilə söhbət edib. Sonra kompüterdə oyun oynayıb. Daha sonra anası və bacısı onunla sağollaşaraq yatıblar. Anası səhər saat 5-də yuxudan ayılıb, görüb ki, oğlu yerində deyil. Bir az gözlədikdən sonra Samranı axtarıb. Onun meyiti asılmış halda həyətdə tövlədən tapılıb".

**Qohumunun sözlərinə görə, 18 yaşlı gəncin intihar etməsinin səbəbi ailəsinə də məlum deyil:** "Samranın özünü asma səbəbi hələ də qaranlıq qalır. Onun ölümünə bir səbəb olmayıb axı. Dünən axşam ad günü məclisində içməyib ki, deyək içkinin təsirindən bu addımı atıb. Ailəsinə də onun intiharı müəmmalı qalıb".

Bakı şəhəri, Binəqədi rayonunda da intihar hadisəsi baş verib. "Report"un xəbərinə görə, hadisə Stroydetal küçəsi, ev 38-də qeydə alınıb.

Orada Bakı şəhər sakini 1977-ci il təvəllüdlü Mehman Rəhimov özünü evin həyətyanı sahəsində yerləşən köməkçi tikilidə kəndirlə asaraq intihar edib.

Meyitin hər iki qolunda kəsilmiş yaralar aşkar edilib. Müəyyən edilib ki, M.Rəhimov bir neçə gün əvvəl qollarını kəsərək özünü öldürmək istəyib.

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə iş açılıb, istintaq davam edir.

İsmayıllı rayonunda isə ruhi xəstə intihar edib.

APA-nın məlumatına görə, rayonun İstusu kənd sakini, 1974-cü il təvəllüdlü Zülfüqarov İlqar Ziyad oğlu yaşadığı evin həyətyanı sahəsində özünü asıb. İlkin araşdırmalar zamanı onun uzun müddət ruhi xəstəlikdən əziyyət çəkdiyi məlum olub.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.



# Akif Çovdarovu zorla, amma qanuni şəkildə yedizdirəcəklər

## Müzəffər Baxış: "Cəzaların İcrası Məcəlləsində belə bir qayda nəzərdə tutulub"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov barəsində olan cinayət işinin materialları ilə tanış olmanı dayandırıb. Bunu APA-ya açıqlamasında Akif Çovdarovun vəkili Sadiq Rəsulov deyib. Vəkil bildirib ki, müvəkkilinin səhhəti ağır olduğu üçün cinayət işinin materialları ilə tanış ola bilmir: "Bilirsiniz ki, Akif Çovdarov bir müddətdir aclıq aksiyasına başlayıb. Hazırda aclıq aksiyasını davam etdirir. O, bir neçə xəstəlikdən əziyyət çəkir. Aclıq aksiyası isə səhhətinə daha pis təsir edir. Hazırda Bakı İstintaq Təcridxanasının sanitar hissəsində saxlanılır" .**

Vəkilin açıqlamasından göründüyü kimi, iş materialları ilə tanış olma məsələsində istintaqın mövqeyi ilə Akif Çovdarovun mövqeyi haçalanır. Odioz general xəstəliyini əsas gətirməklə iş materialları ilə istintaqın təyin etdiyi vaxta - avqustun 30-na qədər tanış ola bilməyəcəyini bəyan edir. Bu müddət bitəndən sonra A.Çovdarov işlə tanış olmadan işin məhkəməyə göndərilməsinə qanunda münasibət necədir?

### Çovdarov işlə tanış olmasa...

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış hüquqşünas Müzəffər Baxış deyir ki, qanunla təqsirləndirilən şəxs, bu, halda A.Çovdarov işlə tanış olmadan iş materialları məhkəməyə göndərilə bilməz:** "Göndərəcəklərsə, bu qanun pozuntusu olacaq. Normal dövlətlərdə belə məsələlər Cinayət Prosessual Məcəllənin (CPM) kobud pozuntusu kimi qiymətləndirilir. İş bu şəkildə məhkəməyə göndərilsə və vəsatət qaldırılsa ki, Akif Çovdarov cinayət işinin materialları ilə tanış olmayıb, bu, CPM-in 303.3.1 maddəsinə görə təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması kimi qiymətləndiriləcək. Bu halda məhkəmə iclasının hazırlıq iclasında məhkəmə işə baxılmasına xitam verməlidir və işi təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi üçün istintaq orqanına göndərməlidir. CPM-in 303.5-ci maddəsinə görə, cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verildikdə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarıldıqda o, prokurorluğa daxil olduğu vaxtdan istintaq müddəti əvvəllər aparılmış məhkəməyədək icraat zamanı hesablanmış müddətə əlavə olaraq hesablanır. Amma Azərbayan məhkəmələrinin hazırkı durumunu nəzərə aldıqda, inanmıram ki, məhkəmə hazırkı cinayət işinin baxılmasına xitam versin və iş materiallarını ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarsın. Bu olmayacaq. Məhkəmə bu məsələni ört-basdır edəcək və üstündən keçməyə çalışacaq".

### Odioz general aclığı dayandırmasa...

Akif Çovdarov iş materialları ilə tanış olmasına şərait yaradılması tələbi ilə avqustun 19-dan başladığı aclıq aksiyasını davam etdirir. Artıq 10 gündür ki, o, acdır və bu onun sağlıq durumunu ağırlaşdıra bilər. Vəkili Sadiq Rəsulov israrla onun sağlıq durumunda problemlərin olduğunu, onun görüşə sərbəst gəlmək iqtidarında olmadığını deyir. Vəkilin dediklərindən belə anlaşılır ki, A.Çovdarov aclığı davam etdirsə, onun sağlıq durumu son həddə qədər pisləşə, hətta kritik duruma çata bilər.

Bu halda aclıqdan əldən düşmüş, içində adam oğurluğu ittihamı da daxil olmaqla, Cinayət Məcəlləsinin 10 maddəsi ilə ittiham edilən Akif Çovdarovun zorla yedizdirilməsinə qanun icazə verirmi?

**Müzəffər Baxış deyir ki, qanunda belə bir hal nəzərdə tutulub və onu məcburi qaydada yedizdirə bilərlər:** "Cəzaların İcrası Məcəlləsində (CİM) belə bir qayda nəzərdə tutulub. Düzdür, Akif Çovdarov hazırda cəzaçəkmə müəssisəsində cəza çəkmir. Amma ona məcburi yedizdirilmə proseduru tətbiq oluna bilər. CİM-ə görə, əgər aclıq nəticəsində şəxsin səhhəti üçün hər hansı bir problem yaranarsa, əgər təsdiqlənərsə ki, aclıqdan şəxsin səhhəti üçün ciddi problemlər yaranıb, bu halda məcburi şəkildə qidalandırıla bilər. Bunun üçün həkimlər Akif Çovdarovun aclıq etməsinin onun səhhəti üçün ciddi problem yaratması haqda rəy verməlidirlər. Bundan sonra məcburi qaydada yedizdirilmə proseduru həyata keçirilir".



**Penitensiar Xidmətin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Mehman Sadıqov A.Çovdarovun aclıq keçirməsi ilə bağlı suala cavab olaraq bildirib ki, bu məsələ ilə bağlı heç bir rəsmi müraciət olunmayıb:** "Aclıq aksiyası keçirmək məhkumun haqqıdır. Yalnız məhkum aclıq aksiyası edərkən cəza çəkdiyi, saxlanıldığı yerin rəhbərliyinə müraciət etməli, məktub yazaraq hansı səbəbdən aclıq aksiyası keçirməsini göstərməlidir. Bundan sonra ona həkim ayrılaraq, nəzarət edilir. Akif Çovdarovla bağlı hələ heç bir müraciət edilməyib".

Xatırladaq ki, A.Çovdarov 2015-ci il noyabrın 14-də həbs olunub. 2015-ci il noyabrın 15-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Sonradan barəsində seçilmiş həbs-qətimkan tədbiri 2 dəfə artırılıb. Ona qarşı Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə, bu Məcəllənin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə), 311.3.1 (rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# Putinin "Lavrov planı" - detallar açılır

**Son vaxtlar Rusiya ilə Azərbaycan və Türkiyə arasında sıxlaşan əlaqələr, o sırada Bakı ilə Moskvanın hərbi-texniki sahədə davam edən əməkdaşlığı xüsusən də Dağlıq Qarabağ məsələsi kontekstində Ermənistanda ciddi təlaş doğurub. Erməni siyasi və ekspert dairələrində həmçinin belə bir narahatlıq artmağa başlayıb ki, vaxtaşırı gündəmə gələn "Lavrov planı" da münaqişənin həllində daha çox Azərbaycanın maraqlarını nəzərə alır, nəinki işğalçı ölkənin.**

Xatırladaq ki, Rusiya prezidenti Vladimir Putinin danışmanlarından sayılan, Avrasiya Hərəkatının lideri, politoloq Aleksandr Duqin bir neçə gün öncə erməni mətbuatına müsahibəsində bu plandan söz açarkən demişdi ki, tezliklə Azərbaycanın 5, sonra isə 2 rayonu işğaldan azad ediləcək və bütövlükdə plan Dağlıq Qarabağın de-yure Azərbaycanın tərkibində qalmasını təmin edəcək.

Bu fikri qondarma "DQR"in keçmiş "xarici işlər naziri" və Ermənistan prezidentliyinə keçmiş namizəd, hazırda isə müstəqil erməni analitiklərindən olan Arman Məlikyan da təsdiqləyir.

"Fikrimcə, şərti olaraq "Lavrov planı" adlanan planda Rusiyanın Qarabağ məsələsində siyasi yanaşmasının müəyyən konsepsiyası əksini tapıb. Bu konsepsiyanın mahiyyəti və anlamı ondan ibarətdir ki, Dağlıq Qarabağ formal olaraq Azərbaycanın tərkibində olacaq, de-fakto isə müstəqil olacaq və Bakıya tabe olmayacaq".

Musavat.com-un məlumatına görə, belə bir fikri o, Iragir.am saytına müsahibəsində "Lavrov planı"nın aktuallığını şərh edərkən deyib. "Lakin o halda Dağlıq Qarabağdakı rejim nəinki müstəqil şəkildə xarici siyasət yürüdə bilməyəcək, eyni zamanda özünün beynəlxalq tanınması yönündə addımlar atmaqdan çəkinməli olacaq", - deyə erməni ekspert ardınca qeyd edib.

"Bu planın əsas "mismarı" Rusiya sülhməramlı qüvvələrinin Qarabağ tərəfdən ərazi itkisi hesabına Dağlıq Qarabağ ərazisinə yeridilməsi olacaq", - daha sonra o iddia edib. Məlikyana görə, bununla belə, "Lavrov planı"nın reallaşması Rusiya üçün təkcə Cənubi Qafqazda öz mövqelərini saxlamaq baxımından deyil, daha geniş anlamda kollaps demək olardı.

"Güney Qafqazda öz maraqlarını təmin eləməkdən ötrü Moskva, hər halda, başqa prioritetlər qəbul etməlidir. Hərçənd mən əmin deyiləm ki, Kreml bunun üçün yetərli




## Torpaqlar qayıdır, ...ruslar da?

"Qarabağ Azərbaycanın tərkibində qalacaq, bölgəyə Rusiya sülhməramlıları gələcək"; Rusiya prezidentinin danışmanı ilə erməni ekspertin planla bağlı üst-üstə düşən açıqlamaları nədən xəbər verir; Metyu Brayza bu planı niyə tənqid edirdi ...

ardıcıllıq, ehtiyatlılıq və cəsarət göstərsin" - sonda erməni analitik iddia edib.

*****

Göründüyü kimi, danışıqlar masası üzərində olduğu deyilən "Lavrov planının" (ona "Putin planı" da deyilir) detalları açıqlanmasa da, planla bağlı müəyyən ortaq fikirlər, *(Dağlıq Qarabağın de-yure Azərbaycanın tərkibində qalması, regiona Rusiya sülhməramlılarının gətirilməsi)* hər halda, mövcuddur və artmaqda davam edir. Erməni və Rusiya ekspertlərinin bu məsələdə fikirlərinin üst-üstə düşməsi də kifayət qədər maraqlı nüanslardandır və əlavə şərhə ehtiyac yaradır.

ATƏT-in Minsk Qrupunun sabiq amerikalı həmsədri, Azərbaycandakı keçmiş səfir Metyu Brayza isə az öncə özünün probleme həsr elədiyi müəllif yazısında qeyd eləmişdi ki, Qarabağa dair "Putin planı" həyata keçsə, o zaman ABŞ-ın Rusiyanı bölgədən vurub çıxarmaq strategiyası təhlükə altına düşəcək. Yəni o zaman Moskva bölgədə daha uzunmüddətli perspektivə möhkəmlənmək şansı qazanacaq.

*****

"Lavrov planı"nın əsas konsepsiyası haqda hələ ki nə Rusiya, nə də Azərbaycan və Ermənistan rəsmi səviyyədə açıqlamalar verməyib. Danışıqların konfidensial getdiyi bildirilir. Bununla belə, Azərbaycan tərəfi, prezident İlham Əliyev Sankt-Peterburq görüşündən sonra bir daha bəyan edib ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yoluna qoyulmalıdır və Bakı ərazilərimizdə ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

Bundan başqa, Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov Peterburqda münaqişənin mərhələli həllinə dair anlaşma əldə olunduğunu söyləmişdi. Öz növbəsində Rusiya prezidenti bəyan edib ki, bu, elə bir həll modeli olacaq ki, nə Azərbaycan, nə də Ermənistan özlərini məğlub hesab eləməsin.

Nəhayət, daha bir qiymətli detal: "Lavrov planı"nın mahiyyəti ilə bağlı səslənən və haqqında danışdığımız məqamlar rəsmi Moskva tərəfindən hələ ki təkzib edilməyib. Susmaq isə çox vaxt təsdiqi jest sayılır.

Onu da əlavə edək ki, Putinin danışmanı Duqinin erməni KİV-lərə verdiyi həmin müsahibəsində belə bir fikir də yer alıb: "Bu gün ermənilər anlamır ki, Rusiyanın hesabına Dağlıq Qarabağın erməni əhalisi mövcudluğunu davam etdirir. Moskva İrəvandan tələb edir ki, onun strateji maraqlarını nəzərə alsın. İrəvan Moskvanın milli maraqlarını nəzərə almalıdır, onların başqa yolu yoxdur. Lakin onlar nə edir? Teatr qurub, isterikaya qapılıb ağlamağa başlayırlar. Bu gün Rusiyanın marağı ilk növbədə Azərbaycanla yaxınlaşmaqdır. Moskva İrəvanla münasibətlərə ziyan vurmadan Bakı ilə yaxınlaşmaq siyasəti yürüdür. Bu, Kremlin birmənalı və sərt mövqeyidir... Kreml qısa müddətdə bu problemi həll edərək, Bakı ilə daha çox yaxınlaşmaq istəyir. Bakı ilə Moskvanın yaxınlaşması Dağlıq Qarabağın sonsuzadək Azərbaycanın tərkibində de-yure olmasını təmin edəcək. Regionun rifahı üçün Rusiya-Azərbaycan strateji ittifaqı qaçılmazdır".

Təbii ki, söhbət həm də Azərbaycanın Avrasiya Birliyinə qoşulmasından gedir. Bakının isə bu məsələdə Kremldən əsas gözləntisi bellidir - öncə Qarabağ, ərazilər!

❑ **Siyasət şöbəsi**




## Şeyx Rusiyanın Suriya əməliyyatını dəstəklədi, Türkiyədən danışmadı

"Gəncliyi alçaq niyyətlərinə alət edənlərin İslama heç bir dəxli yoxdur"

**Yaxın Şərqdə, xüsusilə də Suriyada sabitliyin bərqərar olunmasında, hökm sürən xaosun aradan qaldırılmasında Rusiyanın oynadığı rol əhəmiyyət kəsb edir. APA-nın məlumatına görə, bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə Çeçenistanın sabiq prezidenti Əhməd Kadırovun anadan olmasının 65 illiyinə həsr olunmuş beynəlxalq konfransda deyib.**

QMİ sədri Qarabağ probleminin ədalətli sülh yolu ilə həllinin vacibliyi barədə danışaraq qeyd edib ki, 20 ildən çox davam edən bu münaqişə Qafqazın inkişafına əngəldir. O, Rusiya prezidenti Vladimir Putinin sülhün əldə olunması istiqamətində göstərdiyi səyləri yüksək dəyərləndirdiyini bildirib.

Şeyxülislam qeyd edib ki, ekstremistlər, təkfirçilər, din adından istifadə edən sektalar, İŞİD və digərlərin məqsədi və məramlarının, habelə cəmiyyət daxilində nifaq salan, xalqların əsrlər boyu formalaşmış mənəvi köklərini məhv edən, ənənəvi dəyərlərə və dövlətçiliyə qarşı radikal addımlara sövq edən, gəncliyi psevdoislam ideyalarla zəhərləyərək alçaq niyyətlərinə alət edənlərin İslama, müsəlmanları narahat edən problemlərə heç bir dəxli yoxdur.

"Yeni Müsavat" xatırladır ki, Türkiyə ordusu da neçə gündür Suriyada antiterror əməliyyatları keçirir. Şeyx bu barədə nədənsə danışmayıb.

❑ **"YM"**

## Dini Komitə radikalizm və xurafata qarşı mübarizə aparır

Qurumun təşkilatçılığı ilə "Dini radikalizm və xurafat: bir medalın iki üzü" adlı tədbir keçirilib

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini radikalizm və xurafata qarşı silsilə tədbirləri davam etdirir. Avqustun 29-da Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dini radikalizm və xurafat: bir medalın iki üzü" adlı növbəti tədbir keçirildi.**

Tədbirin açılışında çıxış edən DQİDK sədrinin müavini Gündüz İsmayılov komitənin ölkədə dini radikalizm və xurafata qarşı silsilə tədbirlər həyata keçirdiyini bildirdi. Həm radikalizm, həm də xurafatın bir-birinə bağlı olduğunu deyən komitə rəsmisi əlavə etdi ki, DQİDK Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə xurafat və radikalizmə qarşı həm inzibati, həm də marrifçilik tədbirləri ilə mübarizə aparır.

Onun sözlərinə görə, inzibati tədbirləri DQİDK hüquq-mühafizə orqanları ilə birlikdə aparır. Ancaq maarifçilik tədbirlərində QMİ və eləcə də medianın dəstəyinə güvənirlər. G.İsmayılov medianın bu sahədə imkanlarının güclü olduğunu, bu səbəbdən də media orqanları ilə yaxından əməkdaşlıq edildiyini bildirdi.

Mahiyyət etibarı ilə xurafat və radikalizmin eyni olduğunu, birinin o birinin yaranmasına dəstək verdiyini xatırladan komitə rəsmisinin sözlərinə görə, radikalizmin yaranmasında xurafatın böyük rolu olur. Çünki xurafat çox yayılanda yaranmış vəziyyətdən radikal qruplar istifadə edərək insanları cəlb edirlər. Onun sözlərinə görə, mahiyyət etibarı ilə 100 il keçməsinə baxmayaraq, Azərbaycanda xurafat problemi hələ də aktual olaraq qalır. G.İsmayılov dedi ki, xurafatın dini və ictimai tərəfi var, hazırda əsas mübarizə ictimai tərəfi ilə aparılır.

**G.İsmayılovun sözlərinə görə, DQİDK Təhsil Nazirliyi ilə birlikdə "Həyat bilgisi" kitabı üzərində işləyir. Belə ki, kitabın yeni versiyası daha geniş və əhatəli bilgilərlə zənginləşdiriləcək:** "Çünki xurafat probleminin yaranmasında əsas səbəblərdən biri də dini biliklərin az olmasıdır. Hesab edirik ki, şəriət və ya dinin tədrici deyil, dini biliklərin daha da dərinləşdirilməsinə ehtiyac var. Bu istiqamətdə işlər gedir".

Tədbirdə çıxış edən QMİ-nin aparat rəhbəri Qafqaz Müsəlmanları İdarəsinin radikalizm və xurafata qarşı maarifçilik fəaliyyətləri apardığını bildirdi.

İslamşünas İlqar İsmayılzadə xurafat və radikalizmi bir-birindən ayrı olmayan, silsiləvi ardıcıllıqla gələn problemlər olaraq qeyd etdi. İlahiyyatçıya görə, xurafat insanların öz həyatlarında ağıl və düşüncəyə yer verməməsi ilə meydana gəlir: "İnsanlar, bəzi xurafatçı din adamları Quranın həqiqi mahiyyətindən uzaq, qız ərə vermək, itmiş əşyanı tapmaq üçün istifadə edir. Halbuki Quran dəfələrlə insanları düşünməyə dəvət edir, öyüd-nəsihət kitabı olduğunu xatırladır".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

**Azərbaycanda keçiriləcək referenduma bir aydan az vaxt qalır. Sentyabrın 26-sı yaxınlaşdıqca referendum ətrafında müzakirələr qızışır. Müxalifət düşərgəsi gedən prosesləri ölkənin gələcəyi üçün təhlükə hesab etsələr də, iqtidar təmsilçiləri bunun əksini düşünür və gələn ayın 26-dan sonra Azərbaycanda bütün sahələrdə inqilabi dəyişikliklərin olacağının anonsunu verirlər.**

# YAP-çılar referendumdan sonra inqilabi dəyişikliklər vəd edir

Aznews.az-a açıqlamasında YAP İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə bildirib ki, sentyabrın 26-da konstitusiyada edilən dəyişikliklər Azərbaycan tarixində yeni bir səhifə açacaq: "İqtisadi sahədə inqilabi dəyişikliklər ediləcək. İndiki konstitusiya ilə vətəndaşın mülkiyyət hüququ toxunulmazdır. Ancaq təəssüflər olsun ki, bu toxunulmazlıq bəzən sui-istifadəyə gətirib çıxarır. Məsələn, özəlləşmə dövründə bir sıra şəxslər qanun əsasında böyük torpaq sahələrinə malik oldular. Hazırda isə həmin torpaq sahələrindən istifadə olunmur. Azərbaycanın əkinə yararlı torpaq sahəsi azdır, bir hissəsi isə sadəcə olaraq, şəxsi mülkiyyətdə olduğuna görə istifadə edilmir, onları yenidən dövriyyəyə çıxarmaqsa qeyri-mümkündür. Konstitusiyaya edilən dəyişikliklər isə bu problemin həllinə kömək edəcək. Belə ki, torpaq istifadə edilmədikdə məhkəmə yolu ilə hüquqi şəxsdən bazar qiymətinə ödəniş edilməklə alınıb və yenidən təsərrüfat dövriyyəsinə buraxılması mümkün olacaq. Dəyişikliklər problemlərin çevik həll olunmasına, yeniliklərin cəsarətlə həyatımıza daxil olmasına, iqtisadiyyatın güclənməsinə, ən əsası isə vətəndaşın hüquqlarının möhkəmlənməsinə, digər tərəfdən sosial vəziyyətin yaxşılaşmasına kömək edəcək".

**Parlament üzvü Zahid Oruc isə "Yeni Müsavat"a verdiyi son müsahibəsində referendumdan sonra hökumətin fəaliyyətində "ASAN xidmət" modelinin tətbiqinin mümkünlüyündən söz açıb:** "Referendumdan sonra hökumətin fəaliyyətində "ASAN xidmət" modelinin sürətlənməsi daha çox qabardıla bilər ki, bu, hamının xeyrinədir. Dövlət başçısına komandasını yeniləşdirməyə heç kəs mane ola bilmir. Çünki cənab prezidentin iradəsi qarşısında özünü vaxtilə toxunulmaz kastanın üzvü sayanlar da duruş gətirə bilməyiblər. Referendum idarəçilikdəki təkmilləşməni həyata keçirmək, prezidentin xalqa uzanan əllərinə olan maneçilikləri ortadan qaldırmaq və insanların dövlətdən, hökumətdən gözləntilərini tam reallaşdırmaq üçündür".



**Pənah Hüseyn:**
"Cüzi müsbət dəyişikliyi belə görmürəm"



**Bəxtiyar Sadıqov:**
"Burada nə inqilab görürəm, nə də..."

Göründüyü kimi, iqtidar təmsilçiləri referendumdan danışarkən birmənalı şəkildə inqilabi dəyişikliklərin olacağını deyirlər.

**Sabiq baş nazir, AXP lideri Pənah Hüseyn deyilənlərin əksini düşünür. O hesab edir ki, azad siyasi rəqabət mühiti referendumdan sonra ciddi şəkildə geriləyəcək:** "Azərbaycan, hər halda, çağdaş dövrdə tutduğu yoldan əksinə doğru hərəkət etməyə başlayacaq. Konkret bu istiqamətdə indidən danışmaq tez olsa da, amma əlamətləri görünür. İnqilabi müsbət dəyişiklikləri kənara qoyuram, hər hansı bir cüzi müsbət dəyişikliyi belə görmürəm".

**"Azərbaycan" qəzetinin baş redaktoru, YAP-çı deputat Bəxtiyar Sadıqov inqilabi dəyişiklər barədə fikir səsləndirməyin əleyhinədir:** "Prezident Azərbaycan Konstitusiyasında dəyişikliklər edilməsi barədə Referendum Aktı imzalayıb. Yəni islahatlar aparmaq üçün bunun qanuni bazası yaradılır. Əsas qanunumuzda müəyyən dəyişiklər aparılır. Söhbət islahatlardan gedir, burada inqilabi dəyişikliklər sözlərini işlətməyi yerinə düşmüş hesab etmirəm. İndiyə qədər cənab prezident müxtəlif islahatlar keçirib. Bu islahatların hamısı da zərurətdən doğub. Prezidentimizin bir fikri var ki, siyasi islahatlar iqtisadi cəhətdən təmin olunduqda uğur gətirir. Siyasi həyatda inkişaf varsa, iqtisadi cəhətdən dövlət daxilindən dəstək olmalıdır. İqtisadi cəhətdən isə qarşıya müəyyən problemlər çıxırsa, burada da siyasi dəstək önəmlidir. Bütün hallarda bu məsələlər qanuni yolla həll olunmalıdır. Azərbaycanın inkişafı dövlət başçısının daim nəzarətindədir. Məhz indi də onun təşəbbüsü ilə referendum yolu ilə konstitusiyaya dəyişikliklər həyata keçirilir. Burada nə inqilab görürəm, nə də prosesləri inqilabi dəyişiklərə gedən yol kimi görürəm. Artıq üçüncü dəfədir ki, biz konstitusiyada dəyişikliklər etmək istəyirik. Bunu xalqın müzakirəsinə veririk. Xalqın dəstəyi ilə bu proses baş tutacaq. Əgər prezidentimiz bunların baş tutmasını lazım bilirsə, zərurət olduğunu hesab edirsə, o zaman xalqın buna dəstək verəcəyinə inanıram. Bunların Azərbaycanın inkişafı üçün yeni bir təkan olacağını düşünürəm. Söhbət inqilabi inkişafdan getmir, çünki biz daim inkişaf edirik, referendumu inqilabi dəyişiklik yox, zərurəti dəyişiklik kimi qiymətləndirirəm".

❑ Cavanşir ABBASLI

# Müxalifət payız qurultayına hazırlaşır

## Demokratik düşərgə təmsilçiləri gələcək planlarından danışdılar

**Artıq bir müddət sonra yay mövsümü və məzuniyyətlər başa çatır. Bu baxımdan, ictimai və siyasi sferada da canlanmanın olacağı gözlənilir. Bəs siyasi partiyalar payız üçün fəaliyyət planlarını müəyyən ediblərmi?**

Partiya funksionerləri "Yeni Müsavat"a gələcək aylarda hansı işləri görəcəklərini bildiriblər.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** bildirib ki, partiya fəaliyyət istiqamətlərinə uyğun olaraq öz işini davam etdirir: "Hər həftə partiyanın İdarə Heyətinin toplantısı keçirilir. Yeni partiya müvafiq olaraq özünün siyasi fəaliyyəti ilə məşğuldur. Rayon şöbələrimizdə də həmçinin toplantılar keçirilir. "Siyasi partiyalar haqqında" Qanunda nə göstərilirsə ona uyğun da fəaliyyət istiqamətimizi qurmuşuq. Keçiriləcək referendumla bağlı isə partiyanın mövqeyi bəllidir. Belə ki, partiya bu referendumda iştirak etmir. Qarşıdakı proseslərə uyğun olaraq da müzakirələr aparıb, qərarlar qəbul edib, icra edəcəyik".

**ADP sədrinin müavini Taliyət Əliyev bildirib ki, partiya qurultay keçirməyi planlaşdırır:** "Ölkədə elə bir antidemokratik mühit formalaşdırılıb ki, müxalif siyasi partiyaların normal fəaliyyəti üçün minimal şərtlər belə ortadan qalxıb. Belə bir şəraitdə müxalif siyasi partiyaların hər hansı bir dövr üçün fəaliyyət planı hazırlaması çətin məsələdir. İndiki ağır şərtlər altında müxalif siyasi partiyalar ancaq özlərinin strukturlarını qoruyub saxlamaq istiqamətində çalışa bilir. Biz də bu istiqamətdə çalışırıq və qarşıdan gələn referendumdan sonra partiyanın növbəti qurultayının keçirilməsini planlaşdırırıq. Payız aylarında iş planımız bundan ibarətdir".

**AG Partiyanın lideri Tural Abbaslı isə bildirib ki, payız aylarında daha çox partiyanın formalaşması istiqamətində işlər görəcəklər:** "Partiya olaraq yenidən formalaşırıq. AG partiyanın qurultayından sonra istər təşkilati, texniki, istərsə də siyasi əlaqələrlə bağlı demək olar ki, yenidən formalaşma prosesindəyik. Bu baxımdan, yay aylarında olduğu kimi payızın da ilk aylarında təşkilati məsələləri qaydasına qoymağa çalışacağıq. Bura həmçinin Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlar və xarici dövlətlərin səfirlikləri ilə əlaqələrin qurulması, onlarla bu və ya digər formada ünsiyyətin formalaşdırılması da daxildir. Bütün bunlar standart fəaliyyət planımızdır ki, ilkin mərhələdə bu partiyanın prioritetləridir. Ancaq burada hakimiyyətin də atacağı addımlar önəmlidir. Məsələn, heç kimin gözləmədiyi halda konstitusiya seçkiləri keçirilməsi artıq partiyaların planlarını pozdu və onlar bu istiqamətdə fəaliyyət göstərməyə başladılar. Hakimiyyətin ata biləcəyi addımlarla bağlı bəzi analiz və məlumatlarımız var. Yəqin ki, zamanla o informasiyalar özlərini doğruldarsa, bu istiqamətdə də partiya olaraq addımlar atacağıq. Yəni deyərdim ki, fəaliyyət 50 faiz öz planlarımızdan asılıdırsa, bir o qədər də hakimiyyətin yaradacağı siyasi situasiya ilə bağlıdır. Hansı ki, partiya olaraq çevik bir partiya olmaq niyyətindəyik. Əminəm ki, Azərbaycanın siyasi səhnəsində yaxın zamanlarda bizim fəaliyyətimiz özünü tam gücü ilə göstərəcək".




**Vətəndaş Həmrəyliyi Partiyasının icra aparatının rəhbəri Samir Əsədli də bildirib ki, partiya qurultaya hazırlaşır:** "Payız aylarında əsasən rayon təşkilatlarında konfranslar keçirəcəyik. İlin sonunda isə VHP-nin növbəti qurultayı keçiriləcək. Demək olar ki, payızda əsas planlarımız qurultaya hazırlaşmaq və rayon təşkilatlarının konfranslarını keçirməkdir. Bu baxımdan, deyə bilərəm ki, növbəti aylarda elə əsas işlər qurultayla bağlı olacaq".

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami bildirib ki, payız aylarında daha çox təşkilatlanmağa yer verəcəklər:** "Qarşıdan referendum gəlsə də insanların əksəriyyəti çox passiv görünürlər. Partiya olaraq referendum seçkilərində aktiv boykot yolunu seçmişik. Payızda partiyanın əsas işi təşkilatlanma olacaq. Hazırda da bu işlə məşğuluq".

**Partiyanın sədri İqbal Ağazadə isə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, sentyabrdan fərqli şəkildə işə başlayacaqlar. Sədrin sözlərinə görə, Ümid Partiyasının qarşısında duran əsas məqsəd kadr bazasını genişləndirməkdir:** "Bu istiqamətdə ciddi işlərimiz gedir. Yeni insanların siyasi prosesə cəlb olunması və siyasi proseslərdə dinamikliyin artması istiqamətində həm təyin etdiyimiz müavinlər ardıcıl iş aparırlar, həm də bu məsələlərlə bağlı ümumi görüşlərimiz olur".

❑ Əli RAİS



## Milli Məclis bu gündən işə başlayır

**Azərbaycan Milli Məclisi tətili başa vurub, avqustun 30-dan fəaliyyətə başlayır. Bu barədə məlumat parlamentin mətbuat xidmətindən verilib.**

Verilən məlumata əsasən, Milli Məclisin payız sessiyasında komitə iclaslarının sentyabrın 12-dən keçirilməsinə başlanacaq.

Parlamentin payız sessiyasında ilk plenar iclas sentyabrın 30-da keçiriləcək.

Sentyabrın 1-dən isə parlamentdə KİV-in akkreditasiyası başlayacaq (oxu.az)

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# İki il əvvəl Azərbaycanda gülənçi şəbəkəyə qarşı başlanan "təmizləmə" əməliyyatında şok detal

## İstanbuldan Bakıya göndərilən gizli "camaat" hesabatında müdhiş faktlar olub; sabiq baş konsul Həsən Zeynalov ölkəmizdə təşkilatlanmış FETÖ-çülərin qəzəbinə niyə gəlmişdi...

**Türkiyədə 15 iyul qiyamına cəhddən sonra bu ölkədə Fətullah Gülən qrupuna qarşı ifşa əməliyyatları başlayıb. Deməli olar ki, dövlət və ictimai sektorun bütün sahələrində minlərlə insan ifşa olunaraq işdən qovulub, yaxud həbsə atılıb.**

Analoji ifşa prosesinə Azərbaycanda da start verilib. Yeri gəlmişkən, 2013-cü il dekabr həbslərindən sonra Türkiyə ilə yanaşı Azərbaycanda da "camaat təmizləmələri" başlamış, bir sıra qurum və təşkilatlar bağlanmış, bir neçə şəxs vəzifəsini itirmişdi. Hazırda oxşar vəziyyət yenidən yaranıb. Son günlərdə Azərbaycanda da yüksək səviyyədə "ifşa kampaniyaları" başlayıb, dövlət qurumları xətti ilə F.Gülən camaatı haqda ifşa materialları yayılır.

Qeyd edək ki, hələ iki il əvvəl Azərbaycanda bu kampaniya başlayanda bir neçə vəzifəli şəxs işdən çıxarıldı. Prezident Administrasiyasının şöbə müdiri, sabiq deputat Rəbiyyət Aslanovanın oğlu Elnur Aslanov vəzifəsini itirdi. Onun başçılıq etdiyi qruplaşmanın siyahısının Ankaradan göndərildiyi deyilirdi. Həmin vaxt mətbuat yazırdı ki, Türkiyə hakimiyyəti E.Aslanovun görevdən alınmasını rəsmi Bakıdan israrla xahiş edib. Qəzetlər yazırdı ki, onun fətullahçı təşkilatla gizli-aşkar əlaqələri haqda Türkiyə hakimiyyətində detallı bilgilər var. Məhz həmin bilgilərin Bakıya göndərilməsindən sonra E.Aslanov işdən çıxarılıb.

Həmin vaxtlar bu proses YAP-ın "İrəli" Gənclər Təşkilatını da "vurdu". Hakim partiyanın gənclər qoluna gülənçilərin məhz E.Aslanovun, keçmiş deputat Ceyhun Osmanovun xətti ilə doldurulduğu üzə çıxdı. Sən demə, YAP-ın gənc qvardiyası üzdə iqtidarçı, gizlində isə gülənçi imiş... Bundan sonra "İrəli" GT yenidən təşkilatlandı.

Bu yazını qələmə alarkən, yadımıza bir neçə il öncə baş vermiş proses düşdü. Bu haqda həmin dövrdə media sürəkli məqalələr dərc edirdi.

İnternet resurslarını araşdırarkən, mövzuya dair maraqlı məqamlara rast gəldik.

Ən maraqlı detallardan biri Türkiyədən gələn hesabatla bağlı idi. O zaman İstanbulda Azərbaycanın baş konsulu olan Həsən Zeynalovun "fətullahçılarla" bağlı Bakıya hesabat göndərdiyini yəqin hələ də xatırlayanlar var. Hətta saxta profillərdə gedən məlumatlarda bu hesabatda adlar çəkilirdi, "camaata" bağlı azərbaycanlıların konkret adları və fəaliyyətlərinin qeyd olunduğu yazılırdı.

Maraqlıdır ki, daha sonra Həsən Zeynalov özü də yerli mediaya açıqlamasında bu faktları təkzib etməmişdi. Bu hadisələrdən sonra Özbəkistana təyinat alan Həsən Zeynalov o zaman belə bir hesabat hazırladığını etiraf etmişdi. **Sitat: "Bu məsələlər var. Ümumiyyətlə, tək bu deyil, digər bütün məsələlər bizim diqqətimizdədir və hər biri üzrə fikirlərimizi bildiririk. Bizim yazdığımız bütün fikirlər də müzakirə edilir, rəylər bildirilir. Amma belə şeylərin mətbuata düşməsi bizlik deyil. Kim məndən şübhələnirsə, qoy əvvəlcə özlərini araşdırsınlar. Hazırda bu məsələ ilə bağlı da dövlət məşğul olur. Bu məsələlərə strukturlarımızda, bölmələrimizdə baxılır. Şübhə toxumu əkmək istəyənlər öz işləri ilə məşğul olsunlar".**


Həsən Zeynalov

Maraqlıdır ki, o zaman hesabatın detalları açıqlanmadı. Bu gün də orda nələrin yazıldığı və baş konsulun şübhələrinin, əldə etdiyi siyahıda kimlərin olması məsələsi hələ də qaranlıq qalır. Çünki H.Zeynalov öncə uzun müddət Qarsda, daha sonra isə İstanbulda Azərbaycanın baş konsulu olub və necə deyərlər, bu proseslərin mərkəzində yer alıb.

Xatırladaq ki, H.Zeynalov Fətullah Gülən şəbəkəsinin Azərbaycandakı qolu ilə uzun müddət müharibə şəraitində olub. Sabiq baş konsulun bu şəbəkəyə dirəniş göstərməsi, ona qarşı hücumlara nədən olurdu. Bəzi məlumatlara görə, Elnur Aslanov həmin vaxtlar Həsən Zeynalovun əleyhinə yerli mətbuatda serial məqalələr dərc etdirirdi. H.Zeynalovu İstanbul kimi böyük və əhəmiyyətli şəhərdən uzaqlaşdırmaq üçün ciddi fəaliyyətə keçmişdi.

Mövzuya dair H.Zeynalovla danışmaq istəsək də onunla əlaqə saxlamaq cəhdlərimiz alınmadı. İnanırıq ki, bu yazıdan sonra hazırda Özbəkistanda Azərbaycanın səfiri olan Həsən Zeynalov danışacaq, ortaya çıxan suallara cavab verəcək, gerçəkləri anladacaq.

❑ KƏNAN

# Nurçulardan ibarət dini icma qeydiyyatdan keçməyib

## **Gündüz İsmayılov:** "2009-cu ildən nurçuluğa aid dini ədəbiyyatın çapına məhdudiyyət qoymuşuq"

**"İndiyə qədər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində üzvləri hansısa dini cərəyana, o cümlədən nurçuluğa mənsub olan dini icma qeydiyyatdan keçməyib. Dövlət Komitəsi hər hansı dini cərəyanı yox, dini icmaları qeydiyyata alır".**

APA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib.

G. İsmayılov deyib ki, indiyə qədər üzvləri nurçulardan ibarət hər hansı dini icma qeydiyyatdan keçməyib: "Biz artıq 2009-cu ildən nurçuluğa aid dini ədəbiyyatın ölkəyə kütləvi şəkildə ixracına, idxalına, çapına məhdudiyyət qoymuşuq".

Onun sözlərinə görə, Dövlət Komitəsi 2009-cu ildə nurçuluqla bağlı dini ədəbiyyatların Azərbaycana idxalı, ixracı, kütləvi çapına məhdudiyyət qoyduqdan sonra Dövlət Komitəsinə yüzlərlə şikayət daxil olub: "Həmin müraciətlərə, məktublara mənfi cavab verdiyimiz üçün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə yüzlərlə şikayət daxil olub. Bütün bunların hamısı açıq olan məsələlərdir".



# Türkiyə özünü nədən qorumalıdır?



Hüseynbala SƏLİMOV

**Türkiyənin son günlərdə qonşu Suriyada ciddi hərbi əməliyyatlara başlaması və bu ölkənin içərilərinə doğru hərəkət etməsi bölgədə cərəyan edən hadisələrin bəlkə də ən maraqlısıdır.**

Bu hadisəni bir neçə aspektdən yozmaq olardı və ilk olaraq qeyd edək ki, baş verənlər birinci növbədə türk ordusuna olan inamın qaytarılması, axır vaxtlar onun ordusu haqqında gedən söz-söhbətə son qoymaq baxımından önəmlidir. İndi Türkiyədə ciddi hərbi-siyasi dəyişikliklər baş verir. Burada "islahat" sözünü ona görə işlətmirik ki, həmin prosesin bəzi məqamları bizdə sual doğurur.

Nə gizlədək? Biz ordunu və əsgəri sevməyi tədricən Türkiyədən öyrənirdik. Amma hərbi-siyasi çevriliş cəhdindən sonra bir qədər ordunu aşağılamaq təşəbbüsləri də oldu ki, zənnimizcə, buna ehtiyac yox idi. Amma görünür hər şey üçün zaman lazımdır və müəyyən zaman keçdikdən sonra artıq əvvəlki anti-hərbi ritorika səngidi və onun yerini daha təmkinli təhlil tutdu.

Məsələnin bir başqa tərəfi də vardı. Türkiyə adi ölkə deyil, NATO üzvüdür və onun ordusu NATO-nun sayılıb-seçilən ordularından biridir. Təsadüfi deyil ki, son proseslər zamanı NATO funksionerlərinin də davranışında bir narahatlıq elementləri sezilirdi və həmin funksionerlər müttəfiq ölkənin ordusu ilə bağlı səslənən həyəcanlı "proqnozlar"ı rədd edir, ümidlərini itirmirdilər ki, baş verənlər Türkiyə ordusunun hərbi - texniki və taktiki göstəricilərində ciddi geriləmələrə səbəb olmayacaq...

İndi demək olar ki, bu ümidlər özünü doğrultdu. Düzdür, yekun nəticə çıxarmaq hələ tezdir. Hətta bir çoxları Türkiyənin genişmiqyaslı hərbi əməliyyatlara başlamasının ölkə üçün ciddi problemlərə səbəb olacağını iddia edirlər.

Amma güman edirik ki, burada müəyyən qədər şişirtmə vardır. Suriya Əfqanıstan deyil. Sonuncunun özünəməxsus relyefi və təbii şəraiti vardı ki, bu da partizan müharibəsi üçün geniş imkan yaradırdı. Di gəl, Suriya haqqında bunu demək olmur. Amma Suriya kampaniyası tam təhlükəsiz də deyildir. Türkiyə özünü ən çox nədən qorumalıdır?

Həyata keçirilən əməliyyatlar Suriyadakı radikal dini qrupları və kürd separatistlərini əhatə edir. Onlar Türkiyəyə silsilə terror əməliyyatları ilə cavab verə bilərlər ki, bu da sonuncu üçün çox təhlükəlidir. Onsuz da son vaxtlar terror əməliyyatları Türkiyədə həddindən çox baş verir. Onların daha aramsız xarakter alması, artmasısa ölkəni bir az da sarsıda bilərdi...

Burada başqa bir məsələ də vardır. Türkiyənin Suriya siyasətindəki dönüş ABŞ-la bu ölkə arasındakı anlaşmanı bir az da artıra bilərdi. Axır vaxtlar münasibətlərdə bir gərginlik vardır. Hərbi çevriliş cəhdindən sonra bu gərginlik bir az da artmışdı. Təbii ki, buna "Gülən məsələsi" də öz töhfəsini verirdi və indi də verir...

Amma Türkiyə ilə ABŞ arasında ən çox ixtilaf yaradan məsələ kürd məsələsi idi. Fəqət, burada bir məqam da var. ABŞ həmişə Yaxın Şərqdə Türkiyəyə kart-blanş verməyə çalışıb. İraq kampaniyası vaxtı da belə olmuşdu, indi də belədir...

Amma Türkiyə bu şansları yetərincə dəyərləndirə və situasiyaya adekvat siyasət qura bilməyib. Bəli, deyə bilərlər ki, niyə görə Türkiyə ABŞ-ın əlində vasitə olmalıdır? Sözsüz ki, burada müəyyən qədər həqiqət var. Amma böyük siyasətdə başqa cür olmur, hamı biri-birindən yararlanır. Burada bir məqam da var. ABŞ kürdlərin, necə deyərlər, "qara gözü"nə vurulmamışdı. Türkiyə ordusunu çıxandan sonra kürd silahlı birləşmələri bölgədə ən mütəşəkkil və radikal dini qrupların təsirinə məruz qalmayan qüvvədir. ABŞ Türkiyəyə nə deyirdi? Onun İraqa və Suriyaya girməsini istəyirdi. Türkiyə həmin bölgələrə daxil olaraq kürd ərazilərini də nəzarətə götürə bilərdi. Amma Türkiyədə bu missiyaya yetərincə önəm vermədilər. Ola bilsin, bundan sonra siyasətdə müəyyən qədər də olsun, dəyişiklik baş verəcək...

Bilirsiniz, böyük siyasət tamam başqa məsələdir. Ona qalsa, Rusiya Suriyada nə itirib? Təbii ki, onlar da Bəşər Əsədin "qara gözləri"nə aşiq deyil və konkret umacaqları var...

Bir problemi unutdurmağın bir yolu da başqa bir problem yaratmaqdır. Rusiya çalışır ki, onun MDB məkanında yaratdığı, xüsusən də Ukraynada törətdikləri arxa plana keçsin. Ona görə də burnunu Suriya probleminə soxdu. Xəbərlərə baxırsan, deyirlər ki, Kerri və Lavrov Suriya məsələsini müzakirə ediblər!.. Axırda da qayıdırlar ki, bəli, söhbət zamanı Ukrayna məsələsinə də toxunulub...

Düzdür, hər ölkənin siyasətinə onun daxili, milli spesifikası da təsir edir. Təbii ki, Rusiya siyasətində olan kobudluq və qabalıq Türkiyə siyasətində ola bilməz. Amma dəfələrlə yazmışıq ki, Türkiyə kürd problemini özünün sərhədlərindən kənara çıxarmalıdır...

Qərəz, indi bir daha gözləmək qalır. Görək, bütün bu proseslər nə ilə bitir? İstədiyimiz və umduğumuz budur ki, bölgədəki siyasəti Türkiyənin qüdrətini bir az da artırsın. Ən azı ona görə ki, buna bizim də ehtiyacımız var...

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# "Bakı Körpü Tunel"in işçiləri tətil edir

## Zavodun əməkdaşları 8 aydır maaşsız qalıb; rəhbərlik isə söz verir

**"Bakı Körpü Tunel" Açıq Səhmdar Cəmiyyətinin 65 nəfər işçisindən 35-i bir aydır ki, tətil edir. Tətilin səbəbi isə 8 aydır maaşların verilməməsidir.**

Zavod rəhbərliyi hər dəfə işçilərə ödənişin olacağını desə də, verilən vədlər söz olaraq qalır. Bunu musavat.com-un reportyoruna ASC-nin qarşısında etiraz edən işçilər deyiblər. Avqustun 29-da bir qrup zavod işçisi idarənin həyətinə toplaşıb. Aylardır maaş üzünə həsrət qalan işçilər daha öncə də bu formada yığışıb, maaşlarını tələb ediblər. Həmin gün onlara söz verilib ki, avqustun 29-u maaşları veriləcək. Deyilən tarixdə isə maaş əvəzinə onlara bol-bol söz verilib. Onlar artıq bu get-gəldən bezdiklərini və maaşlarının verilməyəcəyi təqdirdə Prezident Administrasiyasına, oradan da müsbət cavab gəlməsə, ABŞ səfirliyinə gedəcəklərini deyirlər.

**1978-ci ildən bu zavodda işləyən Əlifağa Mütəllimli deyir ki, iyul ayın 21-dən etibarən xəbər vermədən bütün işçiləri öz hesablarına məzuniyyətə buraxıblar:** "Ümumilikdə 8 aydır maaş ala bilmirik. Hamının buradan alacağı var. İşləmişik, amma pulumuzu vermirlər. Nə problemləri varsa, bizlik deyil. Amma bizim maaşımızı, halal pulumuzu versinlər. Mən evə 8 aydır pul apara bilmirəm".

**Maaşını ala bilməyən işçilərdən biri də Habil Həsənovdur. Onun sözlərinə görə, zavodun mühasibi onları təhqir edib:** "Zavodun Etibar adlı mühasibi sizdən qabaq burada idi. Gəldi, söyüş söydü, təhqiramiz ifadələr işlətdi. Deyir ki, "kim mənim nömrəmi jurnalistlərə verib? Mən heç kimi tanımıram. Nə müdir tanıyıram, nə də başqasını. Gedin, kimə istəsəniz şikayət edin". Biz halal pulumuzu istəyirik, artıq şey istəmirik ki. Maaşımızı versinlər".

**İşçilərin sözlərinə görə, onlara hər dəfə söz verilir ki, yaxın günlərdə maaşlar veriləcək, amma verilmir:** "Hər dəfə gəlirik-gedirik. Ortada da heç nə yoxdur. Evə gedirəm, uşaqlarım məndən çörək gözləyir. Mən nə edim? Bunlar mənə deyir, gözlə, mən də uşaqlarıma... Mən gözləyərəm, uşaq gözləmir axı".

**Zavodun digər işçisi Məmmədov Zeqan deyir ki, 4 dəfə direktorun qəbulunda olub:** "Hər gün səhər saat 8-dən axşam 5-ə kimi işləmişəm. Elə olub ki, 2 nəfərin yerinə işləmişəm. Təki iş dayanmasın. İndi də xəstəlik tapmışam. Müalicə olunmalıyam. Amma pulum yoxdur. Zavod da maaşımı, halalca pulumu vermir ki, gedim müalicə olunum. Nə vaxt maaşımı verəcəklər, öləndən sonra?"

**Narazı işçilərlə söhbətimiz zamanı zavodun direktoru Zakir İbrahimov da gəldi. O, işçilərə yenə söz verməyə başladı:** "İşləmisiniz, əmək haqlarınız yazılıb. Hamının pulu veriləcək, narahat olmayın".

**İşçilər birağızdan dillənir:**

- Hər dəfə 2 günə veriləcək deyirsiniz. Amma maaşlar verilmir. Hər gün gəlirik bura. 8 aydır ailəmizə bir qəpik pul apara bilmirik.

**Direktor: - Sakit olun. Biz bunu həll edəcəyik.**

- Hər dəfə belə deyirsiniz. Əgər yenə pulumuz verilməsə, gedəcəyik Prezident Administrasiyasına.

**Daha sonra zavodun direktoru Zakir İbrahimov narazı işçiləri qəbul edib onlardan mühasibin sözlərinə görə üzr istəyib:** "Ola bilər ki, əsəbi olub. Çağıracağam və gözünüzün qarşısında sözümü deyəcəyəm. Mən onun yerinə sizdən üzr istəyirəm. O ki qaldı maaş məsələsinə, onu da həll etməyə çalışırıq. Sifarişimiz az olub, işimiz çox. Ona görə də maaşları verə bilmədik. Amma çalışırıq həll edək".

Buna baxmayaraq, işçilər verilən sözlərə inanmırlar. Əldə etdiyimiz məlumata görə, zavodun problemləri devalvasiyadan sonra başlayıb. Şirkətin direktoru vergi borcuna görə ölkədən buraxılmır. Onun ölkədən çıxışına qadağa qoyulub. Zavod bir neçə dəfə cərimə edilib.

**❑ Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**










# İlin 8 ayı - iqtisadiyyat hara gedir?

## Ekspertlər vəziyyəti dəyərləndirir: "Bütövlükdə iqtisadi geriləmə olsa da, ümidverici məqamlar da var..."

**2016-cı ilin səkkizinci ayı da sona çatır. Səkkiz ay Azərbaycan iqtisadiyyatında ciddi məqamlarla yadda qalıb. Bu il ərzində devalvasiya baş verməsə də, manat "üzən məzənnə" siyasəti nəticəsində xeyli dəyər itirib. Üstəlik, yeni devalvasiyanın olacağı da istisna deyil.**

Ölkə bankları üçün 2016-cı il pis başlayıb. Ekspertlər bildirirlər ki, ilin ilk ayında 10-a yaxın bankın bağlanması ilə çöküşü sürətlənən bank sistemi ilin ikinci yarısında böhrana doğru bir qədər də irəliləyib. Bankların yenə də bağlanması gündəmdədir. İlin ötən dövrü ərzində xarici ticarət dövriyyəsi də azalıb. Neftdən asılı olan iqtisadiyyat isə yaxşı vəziyyətdə deyil...

**Ekspert Fikrət Yusifov** səkkiz ayın yekunlarını sadalayarkən musavat.com-a bildirib ki, bütövlükdə iqtisadi geriləmə olsa da, ümidverici məqamlar da var: "Ötən dövr ərzində ölkə iqtisadiyyatının real sektorunun inkişafını hədəfləyən bir çox mühüm qərarlar qəbul edilsə də, Dövlət Statistika Komitəsinin rəsmi məlumatları göstərdi ki, ümumilikdə ilin 7 ayı 3 faiz iqtisadi azalmalarla müşahidə olundu. Bu azalma qeyri-neft sektoru üzrə 5,4 faiz təşkil etdi. Neftlə bağlı iqtisadiyyatda azalmalar nə qədər başadüşülən olsa da, neftsiz iqtisadiyyatda azalmalar və neftsiz iqtisadiyyatla bağlı olan sahələr üzrə ixracın cari ilin 6 ayı ərzində 27,0 faiz aşağı düşməsi bir o qədər başadüşülən deyil. Hesab edirəm ki, yaranmış bu vəziyyətin səbəbləri aidiyyəti qurumlar tərəfindən ən qısa zaman kəsiyində dərindən araşdırılmalı və onların aradan qaldırılması məqsədilə təxirəsalınmaz tədbirlər görülməlidir. Bütövlükdə iqtisadi geriləməyə baxmayaraq, bir sıra sahələrdə ötən ilin müvafiq dövrü ilə müqayisədə artım templəri də qeydə alınıb. Məsələn, cari ilin 7 ayı ərzində qeyri-neft sənayesində və kənd təsərrüfatında 2,6 faiz, informasiya və rabitə xidmətləri sahəsində 12,5 faiz, pərakəndə ticarət dövriyyəsində 2,0 faiz artım müşahidə olunub. Cari ildə aqrar sektordan gözləntilər daha böyük olsa da, təəssüf ki, bu özünü doğrultmadı. Bu gün aqrar sektora dövlət səviyyəsində xüsusi dəstək verilir. Bu səbəbdən də sahədən daha ciddi nəticələrin əldə olunacağı gözlənilirdi".

**Ekspert qeyd edib ki, ölkənin bank sektorundakı durum da ürəkaçan deyil:** "Yeni yaradılmış Maliyyə Bazarlarına Nəzarət Palatası bank sektorunda vəziyyətin stabilləşməsi istiqamətində demək olar ki, heç nə edə bilmədi. Bu gün palata bankların fəaliyyətinə elementar nəzarəti həyata keçirməkdə belə acizlik nümayiş etdirir. Palata yaranmazdan öncə Mərkəzi Bank bu nəzarəti daha yaxşı həyata keçirirdi. Hazırda banklara yerləşdirilmiş əmanətlərin və onlar tərəfindən müştərilərə verilmiş kreditlərin üçdə ikisi xarici valyutanın payına düşür. Bank sektorundakı bu durum kardinal addımların atılmasını tələb edir. Sağlam bank sistemi yaratmadan iqtisadi dirçəlişi təmin etmək mümkün deyil".

**Ekspert Vüqar Bayramov isə musavat.com-a bildirib ki, bu ilin ötən ayları ölkə iqtisadiyyatı üçün ürəkaçan olmayıb:** "Ölkə iqtisadiyyatında yeddi ayda ümumdaxili məhsulda üç faizlik azalma qeydə alındı. Bu, daha çox inşaat sektorunda özünü göstərdi, inşaat sektorunda daha çox azalma qeydə alındı. Ticarət dövriyyəsində də, xarici ixracın azalmasında da bu, özünü göstərdi. Bu dövrdə qeyri-neft sektorunda da azalmalar qeydə alındı. Azərbaycan neft idxalından asılı ölkədir. Neft Azərbaycan iqtisadiyyatında dominantdır. Azərbaycana daxil olan valyutanın həcmi birbaşa neft satışından və neftin dünya bazarında qiymətindən asılıdır. Neftin dünya bazarında qiyməti aşağı düşürsə, ixracdan daxil olan valyuta bazarının həcminin azalmasına gətirib çıxarır. Və o baxımdan neftdən asılılığın aradan qaldırılması qısamüddətli dövr üçün çox çətindir, model yoxdur. Ona görə də hökumət üçün qısamüddətli hədəf vacib olmalıdır. Amma eyni zamanda uzunmüddətli hədəf üçün daha çox işləməlidir ki, orta və uzunmüddətli hədəfdə növbəti dövrlərdə azalma tempinin qarşısını ala bilsin. Yalnız ümumi daxili məhsuldakı azalmanın qarşısını birbaşa qeyri-neft sektorunun inkişaf etdirilməsi, islahatların genişləndirilməsi hesabına almaq mümkündür. Neftin qiymətinin artacağı ilə bağlı gözləntilər özünü doğrultmur. Neftin dünya bazarında qiymətində azalmalar var. Yəni artımlar yaxın dövr üçün gözənilən deyil. Dolların dünya bazarında möhkəmlənməsi nəticə etibarı ilə strateji məhsulların və neftin qiymətinə təsir göstərir. Neftin dünya bazarında qiymət azalmalarına təsir göstərə bilər. Ona görə də islahatlar qeyri-neft sektorun inkişaf etdirilməsi istiqamətində olmalıdır və Azərbaycan ümumdaxili məhsulda azalmanı yalnız islahatları genişləndirməklə kompensasiya edə bilər.

**Qeyd edək ki, əksər ekspertlərin fikrincə, ilin səkkiz ayı ərzində ölkə iqtisadiyyatında baş verən proseslər gələcəkdə manatla bağlı təhlükədən xəbər verir. Əkrəm Həsənovun sözlərinə görə, səkkiz ayda ölkə banklarının durumu da xeyli dərəcədə pisləşib:** "Beynəlxalq reytinq agentlikləri bankların böyük hissəsinin reytinqini azaltdılar. İndi də bir neçə bankın bağlanacağı haqda söhbətlər var. Bu, bankların ağır vəziyyətdə olmasından xəbər verir. Həmin reytinq agentlikləri həm də banklarda ümumən problemli kreditlərin, borcların dediklərindən bir neçə dəfə çox olduğunu bildirdilər. Bu da bankların qeyri-şəffaf olmasından xəbər verir. Əhəmiyyətli hadisə bank nəzarəti səlahiyyətinin Mərkəzi Bankdan alınıb Maliyyə Bazarlarına Nəzarət Palatasına verilməsi oldu. Beş aydan çoxdur ki, bu səlahiyyəti palata həyata keçirir. Amma burada da elə bir uğur yoxdur". **Həmçinin səkkiz ayda diqqət çəkən digər məqam əmanətlərin azalmasıdır:** "Əmanətlər kəskin azalıb. Mərkəzi Bankın saytında da bu, görünür. Bu, bütövlükdə bank sisteminə etimadın azalmasının göstəricisidir". O, həmçinin qeyd edib ki, əsas məsələ milli valyutanın taleyidir ki, ilin səkkiz ayında onun vəziyyəti yaxşı olmayıb: "Qalan dörd ay ərzində vəziyyət daha da pisləşəcək".

**❑ Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# Əli Kərimliyə "ümummilli lider" işarəsi müxalif düşərgəni qarışdırdı

**Ümid Partiyasının keçmiş funksioneri Nəsimi Məmmədli sosial şəbəkədə AXCP sədri Əli Kərimlini "ümummilli lider" adlandırıb ki, bu da müxalifət düşərgəsini iki hissəyə ayırıb. AXCP funksionerləri və fəalları onun statusunu həvəslə paylaşsalar da, digər müxalif qurumların təmsilçiləri N.Məmmədlinin statusunun əleyhinə çıxıblar.**

## Nəsimi Məmmədli: "Zaman göstərəcək ki, kim haqlıdır"

Demokratik düşərgəni qarşı-qarşıya qoyan statusda bu sözlər yer alır: "Azərbaycanda kütləvi dinc demokratik mübarizəyə, qanunsuz həbsə və hətta xalqının hüquqları uğrunda şərəfli ölümə hazır olan yeni bir ümummilli liderin milli iradəsinin ilk sədası eşidilir".

Göründüyü kimi, statusda konkret ad çəkilməyib. Amma yazılan rəylər və AXCP fəallarının mövqeyindən aydın şəkildə N.Məmmədlinin Ə.Kərimlini nəzərdə tutduğu sezilir. Status ətrafında ciddi qarşıdurma da yaşanır. AXCP fəalları status müəllifini qınayanlara aşağılayıcı tonda cavablar verirlər.

**N.Məmmədli paylaşdığı statusun geniş rezonans doğurması ilə bağlı "Yeni Müsavat"a bunları dedi:** "Son dövrlər mütəmadi olaraq ümumi müzakirə mühiti üçün müxtəlif fikirlər yazıram. Bu da onlardan biri idi. Kimisə təhqir etmədən, aşağılamadan, xüsusilə də ad çəkmədən ümumi bir fikir yazdım və onun ətrafında hansısa müzakirələrin olacağını da istisna etmirdim. Toplumda ümumi möhkəmlənmiş bir baxış var. Əksəriyyət mütləq bir liderin varlığına sığınaraq siyasi mübarizə aparmaq istəyir. Bu istər müxalifət partiyalarının üzvləri və tərəfdarları olsun, istərsə də sadə xalq. Əhalinin real durumunu çox yaxşı bilən bir insan kimi ictimaiyyətə çatdırmaq istədim ki, böhranın dərinləşməkdə olduğu bir dönəmdə əsassız həbslərin davam etməsi bir gün fərqli reaksiya doğuracaq. Narazı xalqın hansısa etirazlara dəstək verməsi və kütləvi qoşulması hər an baş verə bilər. Ölkədə bunun üçün şərait sürətlə yetişir. İndiki dönəmdə sətiraltı ifadələrlə yeni bir liderin "milli iradəsinin ilk sədası eşidilir" fikri həm hüquq tanımayan bir hökumətə, həm topluma, həm də müxalifətin sadə nümayəndələrinə fəal bir vətəndaş mesajıdır".

**Sabiq Ümid funksioneri onu tənqid edənlərə də münasibət bildirdi:** "İctimai müstəvidə müzakirə yaradan bir fikir sahibinə qarşı tənqidlər olmalıdır və hətta lazımdır. Amma fikrini və ya şəxsiyyətini bəyənmədiyimiz şəxsə qarşı qarayaxmaq, ləkələmək, iftira etmək, qərəzlə davranmaq siyasi iddiası olan insanlar üçün xüsusilə də yolverilməzdir. Təəssüf ki, belələri az deyil. Sosial şəbəkələr elə bir müstəvidir ki, burada hər kəs yazır, oxuyur və fikir bildirir. Təəssüf ki, bu müstəvidə xeyli əxlaqsız və savadsız şəxslər də bilgisayar qarşısındadır və ümumi müzakirə mühitini korlamaq üçün fürsət gözləyirlər. Heç olmasa bunu siyasi mənsubiyyət daşıyan şəxslər etməməlidir. Ölkədə bu qədər vacib problemlər olduğu halda, bəzi müxalif partiya funksionerinin öncəliyi heç də ürəkaçan deyil. Əks fikirdə olmaq istəyənlər daha çox onun üzərinə vurğu salmaq istədilər ki, "ümummilli liderlər, xilaskarlar yalnız totalitar və avtoritar cəmiyyətlərdə olur" və "bizim can atdığımız cəmiyyətdə kimliyindən asılı olmayaraq ümummilli liderə yer yoxdur". Bunu zaman göstərəcək ki, kim haqlıdır. Məgər milliazadlıq hərəkatının vahid lider ətrafında hakimiyyətə gəlməsini avtoritar hakimiyyət etdi?


Nəsimi Məmmədli

Elə hamımızın yaxşı tanıdığı Qandi və ya Atatürk ümummilli lider deyildimi? Onları da sağlığında və bu gün də qəbul etməyən sosial-siyasi qruplar var. Amma bu o demək deyil ki, onlar ümummilli lider deyil. Liderlik hər zaman aktualdır və proseslərin lokomotivi rolunda əhəmiyyətli funksiyaya malikdir. Antidemokratik rejimlərin seçkilərində yüz minlərin səsini və dəstəyini qazanıb ən parlaq alternativ namizəd olmaq olar, lakin liderlik xarakteri çatmırsa, ümummilli bir prosesi yarada bilməz və məğlubiyyətlə barışmağa məhkumdur. Ümummilli lider axtarmağa əlbəttə ki, zərurət yoxdur. Aydın hədəf və iradə qoyan şəxs mütləq prosesin liderinə çevriləcək. Hökumət isə bu halı qəbul etmədikcə cəmiyyətə təzyiqi artıracaq və nəticəni sürətləndirəcək. Prosesi düzgün idarə etməklə müsbət nəticə almaq olar".

**N.Məmmədli statusda konkret ad çəkməməsinə aydınlıq gətirdi:** "Konkret ad çəkib deməmişəm ki, filankəs "ümummilli liderdir". Ümumi fikir ifadə etmişəm ki, "kütləvi dinc demokratik mübarizəyə, qanunsuz həbsə və hətta xalqının hüquqları uğrunda şərəfli ölümə hazır olan yeni bir ümummilli liderin milli iradəsinin ilk sədası eşidilir". Ölkəmizin müxtəlif dönəmlərində ümummilli liderlik funksiyasını üzərində daşıyan siyasətçilər olub və birinin də bu sıraya qoşulması ehtimalını hiss etməyim heç də onun ortada olmasını iddia etmək deyil. Amma müzakirələr göstərdi ki, siyasi baxışlarına uyğun olaraq bəzi insanlar hesab edir ki, artıq belə bir lider var. Bəziləri isə deyir ki, yoxdur və ümumiyyətlə siyasi prosesə lider lazım deyil. Bu fikirlərə qətiyyən müdaxilə etmirəm".

**N.Məmmədli fikirlərinin üstündə qaldığını da qeyd etdi:** "Aydın və birmənalı iddia edirəm ki, uğurlu kütləvi proses lidersiz baş verməyəcək. Mərhum eks-prezident Heydər Əliyev 1991-ci ilin martında öz tərəfdarlarına və xalqa müraciət etdi ki, hamılıqla AXC-yə dəstək olun. Bu, o zaman üçün ən doğru siyasi gediş idi. Bir qüvvəni önə çıxarmaqla prosesi aparmaq mümkün idi. O davranış sonradan Heydər Əliyevin hakimiyyət yolunun açılmasında da xüsusi rol oynadı. Mən məsələyə daha qlobal baxışın tərəfdarıyam. Proseslər onu göstərir ki, ölkəmizdə kütləvi dinc demokratik mübarizəyə, qanunsuz həbsə və hətta xalqın hüquqları uğrunda şərəfli ölümə hazır olan yeni bir liderin ortaya çıxacağı ehtimalı çox yüksəkdir. Əlbəttə ki, onu qəbul etməyən və müqavimət göstərənlər də az olmayacaq".

**Cavanşir ABBASLI**

# Cahangir Hacıyev tələbə yoldaşına 60 milyon kredit veribmiş

## Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və daha yeddi nəfərin işi üzrə məhkəmə prosesində şahidlər ifadə verib

**Avqustun 29-da "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyev və daha yeddi nəfərin işi üzrə məhkəmə prosesi davam etdirilib. C.Hacıyevlə yanaşı müxtəlif vaxtlarda Beynəlxalq Bankın Mərkəz filialının direktoru olmuş Anar Sultanov, Yusif Ələkbərov, həmin filialın müdiri olmuş İlqar Abdullayev, bankın Nəqliyyat filialının keçmiş direktoru Kənan Orucov, AFB Bankın Müşahidə Şurasının sədri Məmməd Cahangirov, "İnter Security"nin keçmiş rəhbəri İbrahim Hüseynov və Fındıq Emalı Müəssisəsinin direktoru Azad Cavadov da var.**

Musavat.com xəbər verir ki, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmə prosesində təqsirləndirilənlərdən Azad Cavadov dövlət ittihamçısının və vəkillərin suallarını cavablandırıb.

Təqsirləndirilən Azad Cavadov prokuror Fərid Nağıyevin suallarına cavab verərək bildirib ki, Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevlə tələbə yoldaşı olub. C.Hacıyevin dəvəti ilə Bakı Fındıq Emalı Zavodunda əvvəl direktor müavini, 2002-ci ildən isə direktor kimi fəaliyyət göstərib.

O, ifadəsində deyib ki, barəsində əvvəl cinayət işi açılıb. Həmin cinayət işi zavodda Vergilər Nazirliyi tərəfindən aparılan yoxlamalara görə olub. Bundan sonra ona cinayət işi açılıb. Azad Cavadov bankdan götürülən 17 milyon kreditlə həmin borcu ödəyib və bundan sonra cinayət işi açılıb.

A.Cavadov deyib ki, zavoda ümumi 60 milyonluq kredit götürülüb və həmin məbləğ müəssisənin genişləndirilməsinə sərf edilib və bank da pulların xərclənməsinə nəzarəti həyata keçirib.

Qeyd edək ki, ittiham aktına görə, həmin pullardan 6 milyonu mənimsənilib. A.Cavadov deyib ki, heç bir mənimsəmədən söhbət gedə bilməz və pul ödənilməsə idi müəssisənin özü bankın girovunda idi. O qeyd edib ki, müəssisə sonradan "Aqrarkredit" QSC-nin nəzarətinə keçib. C.Hacıyev onun dediklərini təsdiqləyib. "Müəssisə ilə bağlı girov sazişi imzalanıb. Sonradan müəssisənin "Aqrarkredit"in nəzarətinə keçməsi prezidentin müvafiq fərmanına uyğun olaraq baş tutub. Ancaq bu ittiham prezidentin fərmanına ziddir"- deyə C.Hacıyev qeyd edib.

C.Hacıyev A.Cavadovun tələb yoldaşı olduğunu, ona güvəndiyini və onun fəaliyyəti dövründə bankın kredit borclarının ödənildiyini deyib. Sabiq bankir dostu ilə bağlı irəli sürülən 6 milyonluq mənimsəmə ittihamının cəfəngiyyat olduğunu bildirib.

Məhkəmənin davamında 14 nəfər şahid qismində dindirilib. Onlar "İnter Security" mühafizə şirkətinin işçiləri olub. Onlar rəhbərlik tərəfindən banka göndərildiklərini və götürülən kreditlərdən xəbərsiz olduqlarını deyiblər. Həmin şəxslər rəhbərliyin göstərişi ilə banka gedib sənədlərə qol çəkdiklərini söyləyiblər. İfadə verən Zaur Soltəliyev deyib ki, şirkət rəhbərliyi tərəfindən çağırılıb və bankın "Nərimanov" filialına gedərək sənədlərə qol çəkib. O bildirib ki, nə üçün sənədlərə qol çəkdiyindən xəbərsiz olub. Növbəti ifadə verən şəxs Namiq Quliyev olub. O da bankın "Suraxanı" filialından sənədlərə qol çəkib. O qeyd edib ki, adına kredit götürülməsindən sonra xəbərdar olub. İfadə verən Zaur Xəlilov "İnter Security" şirkətində işlədiyini və rəhbərlik tərəfindən bankın "Nəqliyyat" filialına çağırıldığını, sənədlərə qol çəkdiyi qeyd edib. O deyib ki, kredit götürülməsindən xəbəri olmayıb.


Cahangir Hacıyev

Beynəlxalq Bankın nümayəndəsi Ağalar Ağaşirinov məhkəmə heyətinə arayış təqdim edib. Təqdim edilən arayışda qeyd edilib ki, 211 milyon manatın 94 milyonu Anar Soltanov, 45 milyon 813 mini İlqar Abdullayev, 16 milyonu Kənan Orucov, 6 milyonu Məmməd Cahangirov, 7 milyon 612 mini Azad Cavadov, 37 milyon 469 mini Yusif Ələkbərov, 39 milyon isə İbrahim Hüseynov tərəfindən mənimsənib. Və onlar buna görə müştərək məsuliyyət daşıyırlar.

**Cahangir Hacıyevin vəkili Fəxrəddin Mehdiyev bildirib ki, cinayət işi ilə bağlı qaranlıq qalan əsas məqam iki zərərçəkmiş tərəfin tanınmasıdır.** "Prezidentin fərmanı ilə Beynəlxalq Bankın səlahiyyətləri, problemli kreditlərlə bağlı məsələlərin həlli "Aqrarkredit" QSC-yə verilib. Belə olan halda Beynəlxalq Bankın zərərçəkmiş kimi tanınması ziddiyyət təşkil edir. Biz məhkəmədən də xahiş edirik ki, Maliyyə Nazirliyi, Beynəlxalq Bank və "Aqrarkredit" QSC tərəfindən imzalanan çoxtərəfli müqavilələrin surəti və problemli kreditlərlə bağlı sənədlərin surəti məhkəməyə təqdim edilsin. Bu zaman yaranan suallara aydınlıq gəlsin. Biz bununla bağlı əvvəlki proseslərdə də vəsatətlər qaldırmışıq. Ancaq baxılmamış saxlanılıb".

Şahid kimi ifadə verən Rauf Şahbazov deyib ki, o təqsirləndirilənlərdən Azad Cavadovun işi ilə bağlı 10 nəfərin adına kredit götürülüb. Həmin şəxslər "İnter Security" şirkətinin işçiləri olub. Həmin kreditlər Bakı Fındıq Emalı Zavodu üçün götürülüb. Prokuror Fərid Nağıyev şahidə indi də adına bankda 107 min 800 manat pul olmasından xəbərinin olub-olmadığını soruşub. Rauf Şahbazov deyib ki, nə bu puldan, nə də götürülən kreditdən xəbəri olmayıb.

**Məhkəmə prosesi avqustun 31-də davam edəcək.**

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# Qasırğadan ziyan çəkənlərə kompensasiya veriləcəkmi?

**«Azərişıq»:** "Rayona yeni kabel xətləri və yeni transformator göndərildi, bərpa işləri yekunlaşır"
**FHN:** "Əhaliyə dəymiş ziyan hesablanır, kompensasiya üçün Nazirlər Kabinetinə göndəriləcək"

**Avqustun 27-də bölgələrdə baş verən qısamüddətli qasırğa əhaliyə ciddi ziyan vurub. Tovuzda güclü külək bir binanın və bəzi evlərin dam örtüyünü uçurub, elektrik naqillərinə ziyan vurub. Ağdam, Bərdə və Tərtər rayonlarında qasırğa ağacları kökündən qopararaq elektrik naqillərinin üzərinə salıb. Qubada və Şəkidə isə yağan leysan yağışlar ciddi fəsadlar törədib.**

Mətbuatda gedən məlumatlara görə, yağış, şimşək və ardından bir neçə dəqiqəlik qasırğa Tovuzda dağıntılara səbəb olub. Güclü əsən külək rayonun Sabir küçəsində yerləşən 5 mərtəbəli binanın dam örtüyünü uçurub, mərkəzi hissədə olan ağacları qırıb. Bu zaman Əlibəyli, Yuxarı Öysüzlü, Aşağı Quşçu, Azaflı, Bayramlı, Bozalqanlı kəndlərinə də xeyli ziyan dəyib. Az müddətli qasırğa sərhəd kənd olan Əlibəylidə 5 ailənin yaşayış evinin dam örtüyünü, elektrik xətlərini, Aşağı Quşçu kəndi ərazisində bir neçə ticarət mərkəzini, elektrik, rabitə xətlərini yararsız hala salıb.

"Yeni Müsavat"ın müxbiri iki gün öncə baş verən qasırğadan sonra Tovuzda vəziyyətin necə olmasını öyrənmək üçün yerli sakinlərlə əlaqə saxlayıb. Sakinlərin sözlərindən məlum olub ki, artıq 3-cü gündür ki, Tovuzun bəzi kəndlərinə elektrik enerjisi verilmir. Qasırğa nəticəsində elektrik xətlərinə ziyan dəydiyindən təmir-bərpa prosesi uzanıb və avqustun 29-da bəzi kəndlərin elektrik enerjisi bərpa edilib, bəzilərinə isə hələ də elektrikin verilişi bərpa edilməyib.

**Tovuz rayonunun Yuxarı Öysüzlü kənd sakinləri hazırkı durumla bağlı qəzetimizə danışarkən bildirdilər ki, avqustun 27-də baş verən təbii fəlakətdən sonra kəndə elektrik enerjisinin verilməsi hələ də bərpa edilməyib. Qasırğa nəticəsində kəndlərə dəyən ziyana gəlincə, yerli sakinlərin evlərinin damlarına zərər dəyib:** "Elektrik xətlərinə ziyan dəyməsinin səbəbi dirəklərin və naqillərin köhnə olmasıdır. Uzun müddətdir elektrik naqilləri dəyişdirilmədiyindən külək əsən kimi xətlər qırılır və kəndlər işıqsız qalır. İndi 3 gündür həmin xətləri yeniləməyə çalışırlar, biz də 3 gündür ki, işıqsızıq. Ehtimal var ki, bu axşam bərpa ediləcək. Evlərə isə ciddi ziyan dəyməyib, ancaq ağaclar qırılıb, dam örtüyü qırılıb uçub".

**Tovuzun Bozalqanlı kənd sakini isə qəzetimizə danışarkən qeyd etdi ki, artıq kəndə elektrik enerjisinin verilməsi bərpa edilib:** "Elektriki bu gün bərpa elədilər. Kəndə çox ziyan dəyib, yıxıntı çoxdur. Evlərin damı uçub, hasarlar uçub yıxılıb, açıq pəncərələr qırılıb tökülüb. İnsanlar 3 gündür çətin vəziyyətdədir. Kompensasiya verilməsi ilə bağlı da heç bir məlumat verməyiblər".

Bozalqanlı kəndinin sakini də bildirib ki, elektrik xətləri və dirəkləri köhnə olduğundan təkcə güclü qasırğa olarkən deyil, adı külək əsəndə də işıqlar sönür, bu mənada əhali əziyyət çəkir.

**Rayonlarda yaranmış duruma aydınlıq gətirən "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev də "Yeni Müsavat"a açıqlamasında təsdiqlədi ki, 3 gün ərzində kəndlər işıqsız qalıb:** "Hazırda Tovuz rayonunun kəndlərinə qısamüddətli elektrik enerjisi verilir, sonra dayandırılır və təmir işləri aparılır. Avqustun 27-də baş verən təbii fəlakət zamanı transformatoru ildırım vurmuşdu, hazırda onu təmir edirik. Bəzi kəndlərdə isə xətlər qırılıb, onlar da bərpa edilir. Rayona yeni kabel xətləri və yeni transformator göndərildi. Neçə gündür ki, əməkdaşlarımız operativ şəraitdə çalışır. Qasırğa çox böyük qəza yaratmışdı. 6-7 kənd işıqsız qalmışdı. Artıq işlər yekunlaşmaq üzrədir, yəqin ki, axşama qədər elektrik enerjisinin verilməsi bərpa ediləcək. Köhnə xətlər də tədricən "Azərişıq" ASC tərəfindən dəyişdirilir".





Qasırğadan ziyan çəkən əhalini narahat edən başqa bir məqam isə dəymiş zərərin qarşılığında onlara dövlət tərəfindən kompensasiyanın verilib-verilməyəcəyidir. Təbii fəlakət zamanı dəyən ziyana görə kompensasiyanı kim və necə ödəməlidir?

**Bu sualı cavablandıran hüquqşünas Müzəffər Baxış bildirdi ki, qanunda yalnız sığorta müqaviləsi olan əmlaklara dəymiş ziyanın ödənilməsi nəzərdə tutulur:** "Əgər həmin evlər sığortalanıbsa, sığorta təşkilatları onlara dəymiş ziyana görə kompensasiya ödəməlidir. "Məcburi sığorta haqqında" Qanuna görə, rayon yerlərində 15 min manata qədər ödənilməlidir. Əgər kimlərinsə daşınmaz əmlaklarının sığortası ilə bağlı sığorta şirkətləri ilə müqaviləsi varsa, onlara sığorta ödəniləcək. Əgər sığorta müqaviləsi yoxdursa, dəymiş ziyanın ödənilməsi ilə bağlı qanunda hər hansı maddə nəzərdə tutulmayıb. Bəzən dövlət özü insanlara dəymiş ziyanın böyük həcmdə olmasını nəzərə alaraq, müəyyən proqramlara əsasən ziyan çəkmiş şəxslərə köməklik göstərir. Zəlzələ, təbii fəlakət, sel daşqınları zamanı bir çox hallarda hökumət bu addımı atır. Nazirlər Kabineti bununla bağlı qərar qəbul edir və bunun əsasında həmin insanlara köməklik göstərilir. Ancaq orada şübhəli məqamlar da çox olur. KİV-də yer alan məlumatlara görə, belə kütləvi proqramların həyata keçirilməsi zamanı bir qayda olaraq, proqramı həyata keçirən qurumlar dövlət büdcəsindən ayrılmış vəsaitlərin əksər hissəsini mənimsəyirlər, insanlara da cüzi miqdarda köməklik göstərirlər. Bu Azərbaycan reallığıdır və ölkənin ictimai şüuru da bunu qəbul edir. Əhali deyir ki, bizə az miqdarda nəsə ver, adıma isə nə qədər istəsən yaz və mənimsə. Əgər Nazirlər Kabineti xüsusi bir qərar qəbul etməsə və ya həmin şəxslər daşınar və daşınmaz əmlaklarını sığorta etdirməyiblərsə, onlara heç bir kompensasiya ödənilməyəcək".

**Qasırğadan ziyan çəkmiş kəndlilərə kompensasiyanın verilib-verilməyəcəyi ilə bağlı Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətinin rəhbəri Oqtay Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda dəymiş ziyanın qiymətləndirilməsi prosesi aparılır:** "Təbii fəlakət baş verən zaman yerli icra hakimiyyətlərinin rəhbərliyi ilə fövqəladə hallar komissiyası yaradırlar və bizim də ekspertlərimiz orada iştirak edir. Onlar dəymiş ziyanla bağlı araşdırma aparır, arayışlar təqdim edir. Həmin arayışlar Nazirlər Kabinetinə təqdim olunur, Nazirlər Kabineti də öz növbəsində kompensasiya verilməsi ilə bağlı hansı tədbirlərin görüləcəyini müəyyənləşdirir. Onlar sonrakı proseslərdir. Hələ ki dəymiş zərərin qiymətləndirilməsi prosesi gedir. Bunu da rayonların fövqəladə hallar komissiyaları aparır. Kompensasiyaların verilməsinə gəlincə, bununla bağlı xüsusi standartlar var, qiymətləndirmə aparıldıqdan sonra ona uyğun olaraq Nazirlər Kabineti müəyyən edir".

❑ **Nərgiz LİFTİYEVA**

# Manatın məzənnəsi yaxın zamanlarda sabitləşməyəcək

## Ekspertlər kəskin devalvasiya ehtimalını istisna etməməklə yanaşı, manatın dəyərdən düşməsini qaçılmaz hesab edirlər; "sentyabrdan etibarən dolların dəyəri azalacaq"

**Manatın devalvasiyası yenidən gündəmə gəlib. Bir tərəfdən bankların əksəriyyəti dollar satışını tamamilə dayandırıb, bəzi banklar isə xeyli məhdudlaşdırıb. Bunun nəticəsində "qara bazar" fəallaşıb və adekvat olaraq hökumətin ona qarşı inzibati tədbirləri güclənib. Paytaxtda bir müddət öncə fəaliyyətə başlayan tək-tük valyutadəyişmə məntəqələri də bağlanıb.**

Yəni atılan bütün addımlar yeni devalvasiyaya zəmin hazırlandığından xəbər verir. Manat isə hər gün dollar qarşısında dəyər itirir. Həmçinin FED rəhbərlərinin uçot dərəcələrinin artırılması ilə bağlı açıqlamasından sonra dolların daha da möhkəmlənəcəyi istisna edilmir. Bəs görəsən, ölkənin valyuta bazarında yaşanan həyəcan fonunda hökumətin atdığı son addımlar manatı xilas etmək üçün yetərli olacaqmı? Və ya biz qarşıdakı dövrdə manatın nə qədər ucuzlaşmasının şahidi olacağıq?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Rəşad Həsənov bildirdi ki, "qara bazar" ləğv olunsa, valyutadəyişmə məntəqələri bağlansa da bu yolla manatın ucuzlaşmasını saxlamaq mümkün olmayacaq:** "Bu günə qədər aparılan inzibati tədbirlər də onu göstərdi ki, bunlar manatın məzənnəsinin qorunub saxlanılması üçün yetərli deyil. Qanunsuz dollar satışı ilə məşğul olan şəxslərin fəaliyyətinin dayandırılması və cəzalandırılması təbii bir prosesdir və qəbul olunandır. Bildiyiniz kimi, ötən ilin dekabr devalvasiyasından sonra Azərbaycanda fiziki şəxslərin valyuta satışı ilə məşğul olmasına məhdudiyyət qoyulub. Bu istiqamətdə fəaliyyət göstərən şəxslər haqqında cəza tədbirləri görülə bilər. Lakin bu yolla manatın məzənnəsinin saxlanılmasına nail olmaq mümkün deyil. Qanuni şəkildə valyuta satışını həyata keçirən banklar valyuta satmırsa, satışa məhdudiyyət tətbiq edirsə, o zaman vətəndaşın əl atacağı ikinci yol qara bazardır. Əgər qara bazarda da dollar almaq mümkün olmursa,o zaman vətəndaş və biznes subyektləri çətin vəziyyətə düşəcək və fəaliyyətlərində dollara tələbatı ödəyə bilməyəcəklər".



**FED rəsmilərinin faizlərin artacağı ilə bağlı açıqlamalarının dollar-manat münasibətlərinə təsirinə gəlincə, ekspert bildirdi ki, bu açıqlama bazara informativ təsirini çox gözlətməyəcək: "Bir müddət öncə FED rəhbərləri uçot dərəcələrinin artırıla biləcəyi ilə bağlı fikirlər səsləndirmişdilər. Son toplantıda da uçot dərəcəsinin qaldırılması ehtimalı 50 faizin üzərinə qalxdı. Bu da valyuta bazarında dolların möhkəmlənməsinə səbəb oldu. Bu informasiyanın verilməsi şənbə-bazar gününə düşdüyü üçün növbəti ilk iş günü bahalaşma daha çox hiss olunacaq. Bu proses sentyabr ayında baş tutacaq toplantıya qədər davam edəcək. Bu toplantıda təxminən 80 faiz ehtimalla uçot dərəcələri artırılmayacaq, ilin sonunda baş tutacaq toplantıya saxlanılacaq. Faizlərin artırılması böyük ehtimalla dekabr ayında baş tutacaq. Məhz bu səbəbdən sentyabr ayına qədər bahalaşan dollar növbəti dövrdə zəifləyəcək. Daha sonra isə dekabr ayının əvvəllərindən etibarən dollar bahalaşmağa başlayacaq".**

**Manatın taleyi ilə bağlı mövcud vəziyyəti dəyərləndirən iqtisadçı ekspert Qubad İbadoğlu da sosial şəbəkədəki paylaşımında bütün iqtisadi şərtlərin manatın əleyhinə olduğunu vurğulayıb.**

**İqtisadçı bildirib ki, bazarda dollara tələb artıb və bu, manata təzyiq edən əsas amildir:** "Hazırda valyuta bazarında gərginlik artıb. Bunu şərtləndirən amillər sırasına bankların sürətlə bağlanmasından sonra bu sistemə olan etibarın, hər gün dəyərini itirdiyinə görə manata olan inamın azalmasıdır. Eləcə də son vaxtlar sabit artım nümayiş etdirən kənd təsərrüfatında məsrəfləri manatla olan təsərrüfat adamlarının əldə etdiləri qazancları dollara dəyişdirməsi, yeni tədris ilinin başlaması ilə əlaqədar olaraq xaricdə təhsil haqlarının ödənilməsi, yay məzuniyyətləri zamanı xaricə gedənlərin sayının artması, ən başlıcası isə kommersiya banklarının valyuta ilə əməliyyatları üzrə manipulyasiyaları, son dövrlər ölkədən kapitalın çıxarılmasının sürətlənməsi ilə izah etmək olar. Bu şərtlərlə manatın məzənnəsinin yaxın zamanlarda sabitləşəcəyini gözləməyə dəyməz.

Odur ki, AMB-nin 3 seçimi var. Ya hazırkı ssenari üzrə manatın məzənnəsini kiçik, lakin artan templərlə azaltmaq, ya fasiləli kəskin devalvasiya, ya da manatı çevik və üzən məzənnə siyasəti ilə azad bazarın öhdəsinə buraxmaq. Bu üç yolun hamısı manatın dəyərini itirməsinə aparır. Hər 3 yolun sonu manatın gerçək məzənnəsinin formalaşmasında bitir".

İqtisadçıların açıqlamalarından məlum oldu ki, onlar kəskin devalvasiya ehtimalını istisna etməməklə yanaşı, manatın dəyərdən düşməsini qaçılmaz hesab edirlər.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# Yazarlar otağında hansı fiqurları saxlayır?

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarovun internetdə yayılmış sonuncu şəklində otağında at fiquru xüsusi olaraq gözə çarpır. Bu cür fiqurlara yalnız Akif Çovdarovun deyil, bir çox məmurların otaqlarında rast gəlinir. İnanca görə, at fiquru insana uğur, bərəkət gətirir. Nal (mütləq yuxarı istiqamətdə olmalıdır) isə bərəkət, xoşbəxtlik, ailə səadətinin əlamətidir. At nalının bədnəzəri qaytarması barədə inanclar da mövcuddur.**

Azərbaycanda məmurların, vəzifəli şəxslərin otaqlarında daha çox istifadə etdikləri fiqurlar at, fil, qartal və şirdir. Bunların da hər birinin öz mənası var. Məsələn, qartal dövlət-hakimiyyət, iqtidar, sonsuz qüvvət, xilaskarlıq anlamında anılır. Fil isə yüksək mövqe, xoşbəxtliyi və zənginliyi özündə təcəssüm etdirir. Şir simvolu çox əski çağlarda fədakarlıq və qanuna həsr olunan şəbihlər əsasında formalaşmış, ilahi hakimiyyəti, gücü, himayədarlığı və müdafiəni bildirirdi.

Ümumiyyətlə, nəinki Azərbaycanda, bir çox ölkələrdə prezidentlərin, məmurların, jurnalistlərin, yazıçıların otaqlarında müxtəlif fiqurlar və rəmzlər olur. Kimisi başının üzərində qılınc, kimisi dəvə, kimisi qoç buynuzu, kimisi fil, kimisi isə at saxlayır. Bu cür inancın Çinə aid olan qədim Fen-şuy elmindən gəldiyi bildirilir. Fen-şuyun 4 min il yaşı olsa da, təsir gücü sınanıldığı üçün unudulmur. Müxtəlif xalqların nümayəndələri qədim çin elmindən bu gün də geniş yararlanırlar. Elə fiqur və rəmzlər var ki, hətta ondan çoxlu pul, gəlir əldə etmək məqsədilə istifadə edilir. İnsanlar düşünür ki, həmin fiqur və rəmzlər onların qazancının artırılmasına təsir edə bilər. Məsələn, mirvari üstündə oturan və ağzında dəmir pul saxlayan qurbağa ən güclü rəmzlərdən hesab olunur. Pulu cəlb etmək üçün pul ağacı, tısbağa, çin dəmir pullar, yelkənli gəmi rəmzlərindən istifadə olunur. Fen-şuy fəlsəfəsinə görə vəzifəsində uzun müddət qalmaq, uğur və çoxlu pul qazanmaq üçün həddindən artıq isinən otaqda oturmamalı, oturduğunuz kreslonun kürəyi qapıya tərəf olmamalı, bol pul qazanmaq üçün isə otağınızda kiçik şəlalə olması şərtdir.

Azərbaycanda kimin öz otağında hansı simvolu, fiquru saxladığını və onun hansı mənanı daşıdığını öyrənmək üçün əlimiz çatan bir neçə tanınmış şəxslə əlaqə saxladıq.



**Aynur Camalqızı:**
“Mənim otağımda nar fiquru var-bu, ruzinin bolluğuna bir işarədir”



**Rəşad Məcid:**
“Bəlkə də mənim otağımda bu cür fiqurlar var”



**Həmid Herisçi:**
“Məndəki əsas fiqur səkkizbucaqdır”

**“Gündəlik Teleqraf” Media Qrupunun rəhbəri Aynur Camalqızı otağında bir çox simvolların olduğunu və onların uğur gətirdiyinə inandığını dedi:** “Mən fiqurların, simvolların uğur gətirəcəyinə inanıram. Mənim otağımda bu cür fiqurlar çoxdur. Bu fiqurlar mənə hədiyyə olunduğu üçün mən onları otağımda saxlayıram. Bütövlükdə götürəndə isə bu cür inancı olan insanlara hörmətlə yanaşıram. Çünki düşünürəm ki, onların insanların həyatında hansısa rolu var. Məsələn, alma fiqurunun uğur gətirməsi haqqında lap qədimdən fikirlər mövcuddur. At, fil fiqurlarının da insana uğur, şans gətirdiyi haqda mənim məlumatım var. Bütövlükdə yenə də deyim ki, kim bunlara inanır və bu fiqurları öz otağında saxlayırsa, mən onlara hörmətlə yanaşıram. Hər halda, bu, illərlə, əsrlərlə sınanmış bir şeydir. Fen-şuy fəlsəfəsi də, açığı, mənim üçün çox cazibədar görünür. Onunla bağlı nə informasiya əlimə keçsə oxuyuram və düşünürəm ki, hər halda, bundan istifadə etmək lazımdır. Məsələn, insanlar qoluna qırmızı rəngdə ip və yaxud da qırmızı kəmər bağlayırsa, bu insanı gözdən, nəzərdən qoruyur. Düşünürəm ki, bu cür inanclar, hər halda, insanların həyatını rövnəqləndirir”.

**A.Camalqızı otağındakı hər bir fiqurun onun üçün ayrıca bir mənası olduğunu dedi:** “Mənim otağımda nar fiquru var. Mən düşünürəm ki, bu, ruzinin bolluğuna bir işarədir. Bunu mənə bir dostum hədiyyə edib. Mən də onu həvəslə öz otağımda yerləşdirmişəm. Belə fiqurlarım çoxdur. Bundan başqa, otağımda çoxlu Quran kitabları var. Daha sonra Quranı qoymaq üçün qablar var. Hər biri mənə əziz dostlarımdan, həmkarlarımdan hədiyyə olduğu üçün onları otağımda saxlayıram”.

**“525-ci” qəzetin baş redaktoru Rəşad Məcid isə bu cür fiqurlara və ya rəmzlərə da elə də diqqətlə yanaşmadığını dedi:** “Bəlkə də mənim otağımda bu cür fiqurlar var. Mən heç onlara fikir verməmişəm. Elə insanlar var ki, buna inamları var. Hansısa fiquru, rəmzi sınayırlar, bu, onlara həyat yollarında kömək olub. Amma mən elə şeylərə inanmıram”.

**Yazıçı-publisist Həmid Herisçi isə otağında səkkiz bucaq saxladığını dedi:** “Məndəki əsas fiqur səkkiz bucaqdır. Bilirsiniz ki, Bakının Maştağa kəndində "Səkkiz qapı" adlı bir ziyarətgah var. Cənnətin də səkkiz qapısı olduğu deyilir. Riyaziyyatda da 8 törədici rəqəmdir. Yəni 8 bucağa, 8 rəmzinə çox böyük inam bəsləyirəm. Məndə bununla bağı çoxlu nadir əşyalar var. Onları çox dəyərləndirirəm. Özüm də 8-ci mikrorayonda yaşayıram. Yəni təsəvvür edin ki, məndə nə varsa, 8 rəqəmi ilə bağlıdır. Uşaqlıqda evimizin yanından 8 saylı trolleybus gedirdi. İndi də o, avtobus kimi bərpa olunub. Həm də bizim məhəlləyə gedən məşhur nəqliyyat vasitəsinin nömrəsi də 88-dir. Qədimlərdə avtobus nömrələrində belə bir anlayış var idi ki, 88 şəhərin başına fırlanan anlamında idi. Axı 8 rəqəmi dairə vurur. O rəqəmlərin hamısı mənim ətrafımdadır, bu rəqəmə sevgim var. Həm də ölkəmizin də tarixi 8 rəqəmi ilə bağlıdır. Bizim xalqımız xalça toxuyan xalq olub. Buna görə də biz istəsək də, istəməsək də bizdə həmişə rəmzlərə böyük etiqad olub. Çünki xalça başdan-ayağa rəmz deməkdir. Azərbaycan xalqı rəmzi mənaları sevən xalqdır. Azərbaycan xalqının hələ də öyrənilməyən böyük simvol dünyası var. Bunların içərisində isə ən məşhuru butadır. Mən bildiyimə görə, 100-ə yaxın buta var. Küsülü butalar, müharibə, sülh butası və sairə".

❑ **Günel MANAFLI**

# Mühacir axını üçün yeni “qapı” - dil kursları...



## Dil öyrənmək adı ilə xaricə gedənlərin böyük əksəriyyəti geri qayıtmır

**Azərbaycandan Avropaya illər öncə başlanan mühacir axını son illərdə pik həddə çatıb. Əgər 2003-cü illərin əvvəllərindən etibarən bunu daha çox siyasi təqiblər səbəbi ilə edənlər çox idisə, indi əmək miqrantlarının sayı artıb. Amma onlar özlərini bu cür adlandırmırlar. Çünki öz ölkəsini yüksək qazanc, firavan həyat üçün tərk edənlərə çox nadir hallarda Avropa öz qapılarını açır.**

“Yeni Müsavat” bu mövzuda bir neçə dəfə araşdırma hazırlayıb. Siyasi mühacir adı ilə ölkəni tərk edənlərin böyük əksəriyyətinin siyasətdən, siyasi fəaliyyətdən anlayışı olmaması artıq bir faktdır. Onlar bir çox hallarda müxalifət partiyalarından bilet əldə etməklə, özlərinə süni “zülmkeş” obrazı yaratmaqla Avropaya yol tapa biliblər. Amma dediyimiz kimi, bu, keçmişdə qalıb. Artıq Avropa da belə yalanlara inanmır, saxta mühacir dalğasının qarşısını almaq üçün önləyici tədbirlər, yoxlamaların sayı maksimuma çatıb. Bundan başqa, xarici ölkələrin Azərbaycandakı səfirliklərində də viza müraciətlərinə asanlıqla razılıq verilmir.

Artıq ölkədən mühacir axını üçün yeni bir “qapı” açılıb. Son illər Azərbaycanda fəaliyyət göstərən dil kursları daha çox bu məqsədə xidmət göstərir. Belə ki, “xaricdə dil kursları”, “xarici ölkələrdə dil bilgilərinizin təkmilləşdirilməsi yolları” adı ilə qarşınıza çıxan əksər elanlar mühacirətə açılan qapının açarıdır. Belə ki, sözdə təhsil üçün xaricə gedənlərin böyük əksəriyyəti getdiyi ölkədə qalmaq üçün kurslara müraciət edir. Çünki xarici ölkələrin səfirlikləri bu punkt üzrə müraciət edənlərə viza verilməsində problem yaratmır. Əksinə, kursların xarici ölkə səfirlikləri ilə əlaqələri normal səviyyədə olur və onların göndərişi ilə müraciət edən “tələbələr” asanlıqla viza əldə edirlər.

Amma bu yazdıqlarımız bir-iki ay öncəyə qədər idi. Artıq səfirliklərdə də “mühacirətin yeni forması” barədə məlumatlar var. Ona görə də dil kurslarından göndərilən müraciətlər ləngidilir, xaricdə dil öyrənmək üçün viza almaq istəyənlərin işi çətinləşib. Ölkədə son dönəmlər sayı sürətlə artan dil kurslarının fəaliyyəti də bu məqsədlə araşdırılmağa başlanıb. Araşdırma çərçivəsində onların xaricə yolladıqları tələbələrin geri qayıtma faizi, ordakı durumları da müəyyən ediləcək.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016

# İŞİD-in tərkibində vuruşanlar məhkəmədə ifadə verib



**Bakı Ağır Cinayətlər Məhkəməsində İŞİD-in tərkibində vuruşmaqda təqsirləndirilən Elbrus Əzizov, Namiq Quliyev, Rasim Bədəlov, İlahi Əzizov, Babək Şirinov, Elman Mirzəbəyov və Əfqan Şamxalovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib...**

Hakim Səbuhi Hüseynovun sədrliyi ilə keçirilən prosesdə həmin şəxslər özlərini təqsirli bilmədiklərini deyiblər. Onlar Suriyada heç bir qruplaşmanın tərkibində döyüşmədiklərini və heç bir təlimlərdə iştirak etmədiklərini bildiriblər.

Möhkəmənin növbəti iclası sentyabrın 5-nə təyin edilib.

Qeyd edək ki, ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, həmçinin Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri dini məzhəbləri yaymaq, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrə cəlb etmə, yaxud bu məqsədlə döyüş təlimləri keçmə, yaxud həmin məqsədlə fəaliyyət göstərən sabit qrup yaratma, eləcə də həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə və digər hüquqazidd əməllərinin törədilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları - Heydərov Zaur Naib oğlu, Əzizov Elbrus Nurməmməd oğlu, Talıbov Vaqif Musa oğlu, Ağcabəyov Rufan Şərəfəddin oğlu və İsmayılov Elşən Aydın oğlu şübhəli şəxs qismində tutulublar.

Faktlarla bağlı MTN İstintaq Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 12.1, 279.1-ci və 283-1.3-cü maddələri ilə cinayət işləri başlanılıb.

Heydərov Zaur Naib oğlu, Əzizov Elbrus Nurməmməd oğlu, Talıbov Vaqif Musa oğlu, Ağcabəyov Rufan Şərəfəddin oğlu və İsmayılov Elşən Aydın oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs-qətimkan tədbirləri seçilib.

Müəyyən edilib ki, Z.Heydərov, E.Əzizov, V.Talıbov, R.Ağcabəyov və E.İsmayılov 2013-2015-ci illər ərzində müxtəlif vaxtlarda Suriya Ərəb Respublikasının və İraq Respublikasının ərazisində həmin dövlətlərin, habelə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan ayrı-ayrı silahlı birləşmələrin, o cümlədən İŞİD, "Cəbhətül-Nusra" və "Cundu Şam" terrorçu təşkilatlarının fəaliyyətində iştirak ediblər.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Maşallah Əhmədovun cinayət işi yenidən ibtidai istintaqa qaytarılıb

**Dələduzluqda təqsirləndirilən tanınmış futbolçu Maşallah Əhmədovun cinayət işi yenidən ibtidai istintaqa qaytarılıb. "Report"un əldə etdiyi məlumata görə, sabiq futbolçunun ötən həftə ibtidai istintaqı yekunlaşaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.**

Lakin prokurorluq cinayət işinin ibtidai istintaqa qaytarılması barədə qərar çıxarıb. İş yenidən ibtidai istintaqda araşdırılacaq.

Qeyd edək ki, M.Əhmədov 2015-ci ilin dekabr ayının 14-də Binəqədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. İlkin məlumata görə, bizneslə məşğul olan "Neftçi"nin keçmiş futbolçusu Bakıda bir neçə nəfərə 150 min manatdan artıq dəyərdə xaricdən daş plitə gətirəcəyini vəd edib. Lakin M.Əhmədov sözünə əməl etməyib, həmin şəxslərin pulunu da qaytarmayıb.

Dekabrın 16-da Binəqədi Rayon Məhkəməsində M.Əhmədov barəsində üç ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Qərardan narazı qalan veteran futbolçu apelyasiya şikayəti ilə BakıApelyasiya Məhkəməsinə müraciət edib. Lakin apelyasiya şikayəti təmin edilməyib.

Dekabrın 30-da isə Binəqədi Rayon Məhkəməsi M.Əhmədov barəsində seçilmiş həbs-qətimkan tədbirini ləğv edib. Tanınmış futbolçu ev dustaqlığına buraxılıb.

Xatırladaq ki, Azərbaycan futbolunun ən güclü hücumçularından olan M.Əhmədov 1959-cu ildə Gəncədə anadan olub. O, 1977-ci ildən "Neftçi" klubunda oynayıb. M.Əhmədov 1995-ci ildə əsas milli komandada məşqçi, U-21-də isə baş məşqçi funksiyasını yerinə yetirib. O, 2008-ci ilin dekabrından etibarən İsgəndər Cavadovun rəhbərlik etdiyi Azərbaycan Regional Futbol Federasiyaları Assosiasiyasının vitse-prezidentidir.

## İki gündə 10 mindən çox sürücü radara düşüb



**Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi avqustun 27-28-də ölkə üzrə keçirilən reydlərin nəticələrinə dair məlumat yayıb. İdarədən "Report"a verilən məlumata görə, yol hərəkəti qaydalarının pozulması, nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə edilməsi hallarının qarşısının alınması istiqamətində DİN-in Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən reydlər ötən həftə də davam etdirilib.**

Respublika ərazisində təkcə şənbə və bazar günlərində bütövlükdə 22 mindən artıq yol hərəkəti qaydasının pozuntusu aşkar edilib ki, onlardan da 10 mindən çoxu foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkarlanıb.

Qalan 12 mindən çox qayda pozuntusu yol hərəkətinə nəzarəti həyata keçirən dövlət yol polisi qurumlarının əməkdaşları tərəfindən aşkarlanıb ki, onlardan da 163-ü nəqliyyat vasitəsinin sərxoş vəziyyətdə idarə edilməsi faktlarıdır. Baş Dövlət Yol Polisi İdarəsi bir daha nəqliyyat vasitələrinin sürücülərindən yol hərəkəti qaydalarına ciddi əməl etmələrini tələb edir.


**Elan**

**Qəbələdə bağ sahibi olmaq istəyənlərin nəzərinə!**

**Qəbələnin gözəl ərazisi olan Vəndam kəndində yola yaxın, dağın ətəyində, meyvə ağacları ilə dolu 54 sot torpaq sahəsi satılır. Hissə-hissə də (6 sot) almaq mümkündür.**

**Əlaqə telefonu: (050) 371-01-60, (070) 335-90-15**

# Ərəb turistlər bölgələrdə ciblərini daha geniş açıb

**Bu ildən etibarən Azərbaycanda turizm deyəndə ağıla ilk olaraq ərəb turistlər gəlir. Şəhər mərkəzinə çıxırsan - onlar, istirahət zonalarına gedirsən - yenə onlar. Bu yay paytaxtdan çıxa bilməyənlər daha çox şəhərin mərkəzində ərəb turistlərin "fırtına"sına şahid oldu. Bahalı kafelərdə, lüks çayxanalarda onların necə "mədəni istirahət" etdiklərinin şahidi olan sakinlər turizm bölgələrində olanlardan bixəbərdir.**

## 8-12 nəfərlik qruplarla gələn ərəb turistlər bir nahar üçün azı 500-700 manat arası hesab ödəyirlər

Jurnalist həmkarımız, tanınmış **yazar Aygün Muradxanlı** bu həftə sonu ölkənin şimal bölgəsinə səfəri zamanı ərəb turistlər və sonuncuların ölkə turizminə necə təsir göstərməsinin şahidi olub. "Yeni Müsavat"a açıqlamasında A.Muradxanlı dedi ki, bir neçə aydır Azərbaycana ərəblərin axınını müşahidə edirik: "Hələlik "niyə məhz ərəblərə yaşıl işıq yandırılıb" sualına cavab tapa bilməmişəm. Düşünürəm ki, bu yalnız biznes maraqları ilə bağlı deyil. Məsələnin sırf turizm tərəfini götürsək, təbii, bu, ölkəyə ciddi paraların gəlməsi deməkdir. Azərbaycanın faktiki sükunət içərisində olan bahalı turizm kompleksləri ərəblərin hesabına son aylar canlanıb. Qiymətlərinə görə Azərbaycan vətəndaşlarının xəyal etdikləri hotellər, istirahət, əyləncə mərkəzləri ərəb turistlərlə dolub-daşır. Bu tendensiyanı həm Bakıda, həm də bölgələrdə müşahidə etmək mümkündür. Hotellərdən restoranlara, taksi şirkətlərinə, alış-veriş mərkəzlərinə qədər böyük bir xidmət şəbəkəsi bu axından razıdır".

**Müsahibimiz dedi ki, ölkə içərisində istirahət etmək istəyən vətəndaşlarına bu "ərəb açılımı" o qədər də əl vermir. Bunun birinci səbəbi heç şübhəsiz ki, qiymətlərin yüksəlməsidir:** "Son iki gündə Azərbaycanın şimal bölgəsinə aid bir neçə rayonda gördüklərimiz belə deməyə əsas verir. Şamaxı, İsmayıllı, Qəbələ və Qaxda xidmətlərin ən azı 40-50 faiz bahalaşdığını gördük. Restoranlarda, istirahət mərkəzlərində boş yer tapmaq faktiki mümkün deyil. Xidmət obyektləri yerli müştərilərə xidmət etməkdənsə ərəbləri qonaqlamağı üstün tutur. Səbəb isə aydındır - ərəb turist qrupları yetərincə böyükdür və onlar yerlilərdən fərqli olaraq 3 nəfərə 1 porsion qarışıq kabab sifariş etmirlər, onların masasında sözün əsl mənasında barmaq basmağa yer olmur. Bu səbəbdən restoranlar kiçik yerli qrupları "yerimiz yoxdur" bəhanəsi ilə geri qaytarırlar - ətraf ərəb qaynaşır, müştəri problemi olmayacağına əmindirlər".



**Həmkarımız bəzi restoranlarda özünü göstərən ikili standartlardan danışdı. Dedi ki, Qəbələnin bəzi restoranları artıq ikili menyü qiymətlərinə keçib - yerlilər və ərəblər üçün qiymətlər fərqlidir:** "Məsələn, "Orman" restoranında 1 şiş kabab ərəblər üçün 7, yerlilər üçün 5 manata təklif olunur. Şiş deyəndə ki, söhbət cəmi 2 tikə kababdan gedir. Toyuq-lu-tərəvəzli sac isə yerlilər üçün 25, ərəblər üçün 45 manatdır. Ofisiantlar deyir ki, hələ heç bir ərəb qiymət məsələsindən şikayətçi olmayıb. Yeməkləri bəyənsələr, xidmətlərdən təkrar istifadə edirlər. Daha çox 8-12 nəfərlik qruplarla gələn ərəb turistlər bir nahar üçün azı 500-700 manat arası hesab ödəyirlər. Bu gəlirlər başqa bir tendensiya yaradıb - ərəblərin əyləşdikləri masaların başına pərvanə kimi dolanan ofisiantları yerli müştərilər çıraqla axtarır. Necə deyərlər, xidmət səviyyəsi yenə də sıfırın altındadır. Turizm obyektləri bizneslərini daha keyfiyyətli və arzuolunan brend yaratmaq prinsipi üzərində yox, real imkanlar daxilində daha çox gəlir əldə etmək üzərində qurur. Görünən odur ki, Azərbaycan vətəndaşları yaxın illərdə də daxili turizmin həddən artıq bahalaşması səbəbi ilə Gürcüstanda dincəlməyə üstünlük verəcək. Ərəb turistlər oraya da güclü axın edir. Ancaq Gürcüstan turizmi hələ Azərbaycandakı kimi yağmaçı siyasətə keçməyib".

Bu məsələdə diqqəti çəkən bir başqa nüans da ərəb axınının turizmin inkişafına təsir göstərməyəcəyi ilə bağlı tezisdir. Belə ki, ərəblərin daha çox axın etdiyi dəbdəbəli restoranların, istirahət mərkəzlərinin hakimiyyətdəki oliqarxlara məxsus olması və sonuncuların isə dövlətə vergi ödəməməsi bilinən gerçəkdir. Bu halda da dövlət büdcəsinə ciddi dəstək olacağı ilə bağlı tezislər özünü doğrultmur.

Amma diqqəti çəkən əsas nüans sıravi vətəndaşların, xüsusən də xidmət sektorunda çalışanların bu ərəfədə bir qədər qazanacağıdır. Tutaq ki, ofisiant bəxşişdən, taksi sürücüsü səxavətli sərnişindən, satıcı turist alıcıdan... Bunlar da əhalinin necə faizini təşkil edir? Əsas sual həm də budur.

❑ **Sevinc TELMANQIZI**

# "Məktəbli yarmarkaları"nın təşkili çox vacibdir"

## "Bu həm qiymətlərin ucuzlaşmasına, həm də nəzarətin güclənməsinə səbəb olacaq"

**Yeni dərs ilinin başlamasına təxminən 3 həftə qalıb. Övladını məktəbə yola salmağa hazırlaşan valideynləri yenə də qayğı və problemlər öz çənginə alıb. Qiymətlərin yüksək olması, insanların maddi vəziyyətinin övladlarının təhsil xərclərini ödəməkdə çətinlik yaratması hər dəfə yazılıb müzakirə edilsə də, heç bir müsbət dəyişiklik baş vermir. Əksinə, qiymətlər hər il daha da bahalaşır. Bu ildə məktəbli ləvazimatlarının qiymətində 30 faiz artım var. Ötən illərdə 25-35 manata satılan məktəbli forması (köynək və jaketsiz) bu il 35-40 manata satılır.**



Rayonlarda məktəbli formaları daha artıq qiymətə satılır. Məsələn, Şəkidə ibtidai sinif şagirdləri üçün nəzərdə tutulan məktəbli forması 65, yuxarı sinif şagirdləri üçün isə 75 manata satılır. Qiymətin niyə belə baha olduğunu soruşduqda isə "bu formalar Bakıdan gəlir, dollar qalxıb, ona görə bahadır" cavabı ilə üzləşdik. Rayonda əhalinin əksəriyyətinin işsiz olduğunu, işləyənlərin isə aylıq gəlirlərinin 150-200 manat olduğunu nəzərə alsaq, bir ailənin övladını məktəbə yola salmasının onun bir aylıq maaşı əsasında başa gələcəyini deməyə əsas verir. Təbii ki, məktəbli forması ilə iş bitmir. Bunun çantası, qələmi, dəftəri, əlavə test kitabçaları, iş dəftəri və sairə var. Elə valideynlər var ki, məhz maddi imkana görə övladını məktəbə yola sala bilmir. Məsələn, Şəkidə olarkən söhbətləşdiyimiz bir neçə valideyn rayonlarda vəziyyətin daha ağır olduğunu deyirdi. **Valideyn Aynur Məmmədova 2 övladının bu il məktəbə getməli olduğunu, amma onları necə yola salacağını bilmədiyini deyirdi:** "Oğlum keçən il getməli idi. Maddi vəziyyətin çətinliyinə görə qoya bilmədik. İndi bu il həm oğlum, həm də qızım məktəbə getməlidir. Mən hər iki uşağa 65 manata məktəbli formasını necə alım? Elə aylıq gəlirimiz 300 manatdır. O pulun 200 manata yaxını təkcə məktəbli formasına gedəcək. Hələ bunun ağ köynəyi, ayaqqabısı da var".

Paytaxtda da vəziyyət eynidir. Söhbətləşdiyimiz alıcılar, elə satıcılar da mövcud vəziyyətdən narahat idilər. Bəzi yerlərdə işbazlar qiyməti daha da artırıb. Məktəb ləvazimatları satan Əşrəf Əliyev qiymətlərdə müəyyən artımlar olduğunu deyirdi: "Hər il belə olur. Bu bizdən asılı deyil".

**Övladına ağ köynək alan Elçin Məhərrəmov bahalıqdan gileyləndi:** "Bu il oğlum 7-ci sinfə keçir. Uşaq bu il 3 il olacaq ki, eyni çantanı aparacaq. Nə edək, almağa imkan yoxdur. Özümüz də uşaqların yanında xəcalətli oluruq. Məktəbli formaları yaratdılar ki, uşaqlar geyiminə görə bir-birindən seçilməsin. Amma onun da hər il qiyməti yavaş-yavaş bahalaşır. Bu qiymətə məktəbli forması almaqdansa, özümüzün aldığımız paltarlar bundan ucuz başa gələr".



Ümumi qiymətlərə gəlincə isə məktəbli formaları 35 manat, ağ köynəklər materialından asılı olaraq 10-30 manat, məktəbli jaketi 5-20 manat, ayaqqabılar keyfiyyətinə görə 15-50 manat arası satılır. Ağ corablar 2-3 manat, kolqotkalar 5-6 manat, saç aksesuarları isə 50 qəpikdən başlayırdı. Məktəbli çantaları 15 -90 manat arası, rəngli karandaşlar firmasına görə 2-10 manat arası satılırdı. Qələmlərin qiyməti isə 20 qəpikdən başlayır. 12 vərəqli 12 qəpik, 40 vərəqli 30-40 qəpik, 100 vərəqli dəftərlər isə 80 qəpiyə və 1 manata satılırdı. Dəftər üzlərinin qiyməti 30-80 qəpik arasında dəyişir. Uşaqlar üçün su qablarının da qiyməti dəyişib. Çin və İrandan gətirilən su qabları daha ucuz və keyfiyyətsiz olur. Bu ölkələrdən gətirilən su qablarını 1 manata da tapmaq olar. Satıcılar deyir ki, keyfiyyətli su qabları əsasən İndoneziyadan gətirilir. İndoneziya istehsallı su qablarının qiyməti isə 3 manatdır. Termoslar 2,50 - 5 manat arasında dəyişir. Rəngli karandaş dəsti - 2 manatdan 10 manatadək, xətkeş 70 qəpik 1 manat, fiqurlu xətkeş 5 manat, rəsm albomu 3-6 manat, plastilin (bir qutu) 3 manat, pozan - 20 qəpikdən 2 manatadək, karandaş yonan - 80 qəpikdən 2 manatadək təklif olunur.





### Flomaster (bir qutu) 3-10 manat civarında satılır...

**Hər il hansısa bayram öncəsi insanlar məhsulları nisbətən ucuz alsın deyə bayram yarmarkaları keçirilir. Maraqlıdır, daha vacib olan - məktəb açılışı öncəsi məktəb yarmarkaları keçirilə bilərmi?**

**İqtisadçı ekspert Vüqar Bayramov məktəbli yarmarkalarının keçirilməsinin vacib olduğunu dedi:** "Mən məktəbli yarmarkalarının keçirilməsi ilə bağlı hökumətə təkliflərimi vermişəm, bu çox vacibdir. Çünki məktəbli yarmarkası qiymətlərin tənzimlənməsinə imkan verəcək. Aparılan monitorinqlər göstərir ki, qiymətlərin artması yalnız idxal olunan məktəbli ləvazimatlarının qiymətlərinin yüksəlməsi ilə bağlı deyil. Eyni zamanda sahibkarların daha çox gəlir əldə etmək istəyi də burada rol oynayır. Çünki məktəbli forması əslində məcburi istehlak deyil, amma reallıqda məcburi istehlak kimi sayıla bilər. Çünki uşaq məktəbə getməlidir, bu formanın alınması vacibdir. Valideynlər çalışır ki, yeni tədris ilində uşaqlarına yeni məktəbli forması, ləvazimatları alsın. İş adamları da bundan istifadə edərək daha yüksək qiymətlər təklif edirlər. Düşünürlər ki, valideynlər borcla olsa belə bunu alacaq. Bu baxımdan, məktəbli yarmarkasının keçirilməsi əslində xərclərin optimallaşdırılması baxımından vacibdir. Rəqabət də qiymətlərin aşağı düşməsinə imkan verəcək. Həmçinin qiymətlərə nəzarət etmək, süni qiymət artımlarına qarşı mübarizəni gücləndirmək də mümkün olacaq".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

*N 191 (6512) 30 avqust 2016*

# Musiqi ilə məşğul olanlar gec qocalır



Amerikalı alimlərin bu yaxınlarda apardıqları təcrübənin nəticəsi çox maraqlı olub. Məlum olub ki, musiqi ilə məşğul olmaq beyni vaxtından əvvəl qocalmaqdan qoruyur. ABŞ alimlərinin sınaqlarında 80 könüllü iştirak edib. Təcrübə və analizlərin nəticəsi göstərib ki, musiqi alətlərində ifa edən yaşlı adamların baş beynindəki neyron birləşmələrin sayı cavan adamlarda olduğu kimidir.

Beləliklə, alimlər sübut ediblər ki, musiqi ilə məşğul olmaq beyində yaşla əlaqədar degenerativ prosesləri ləngidir.

Buna görə onlar yaşlı insanlara müntəzəm olaraq musiqi ilə məşğul olmağı tövsiyə edirlər.

## Xəstəxanada qarışıq düşdülər, 41 il sonra xəbər tutdular



**Kanadada keçirilən mətbuat konfransında 41 il öncə doğum evində səhv düşən iki kanadalının yad ailələrdə necə böyümələrindən bəhs olunub. "CBC News"un xəbərinə görə, 1975-ci ildə dünyaya gələn iki oğlan uşağı qarışdırılıb və yanlış ailələrə verilib. Tədbirdə Leon Svenson və Devid Teyt adlı iki kişi DNK analizlərinin nəticələrini ictimaiyyətə təqdim ediblər və bu illər boyu bioloji valideynləri tərəfindən tərbiyə olunmadıqlarını deyərək göz yaşlarını saxlaya bilməyiblər: "Bizim sözümüz yoxdur. 41 il keçib... Mən sadəcə məyus və qəzəbliyəm".**

Daha sonra Svenson qeyd edib ki, onu böyüdən insanları hər zaman gerçək ailəsi hesab edəcək. Üstəgəl, indi onun daha bir cüt valideyni və qardaşı var. Onun sözlərinə görə, Teyt və Svensonlar bundan sonra böyük bir ailə olaraq ünsiyyət saxlayacaqlar. Leon və Devid Manitoba ştatında yerləşən Norway House Indian Hospitalda, 3 gün ara ilə dünyaya gəliblər. Məlum olub ki, bu xəstəxanada elə həmin il dünyaya gələn iki körpəni qarışdırıblar. Bu haqda xəbər tutan Leon və Devid eyni anda DNK analizindən keçiblər və məlum yanlışlıq üzə çıxıb. Mətbuat konfransından sonra Kanadanın Səhiyyə Nazirliyindən bildiriblər ki, genişmiqyaslı araşdırma aparırlar. Nazirlikdə hesab edirlər ki, başqa körpələrin qarışdırılması faktları da mümkün ola bilər.

## 230 kiloluq uşaq 5 kilo arıqladı; o, məktəbə gedə biləcək

**İndoneziyalı Ariya Permana dünyanın ən kök oğlan uşağı sayılır. Son günlərdəki pəhriz sayəsində o, 5 kilo arıqlayıb. Bu isə ona müstəqil hərəkət etməyə, məktəbə qayıtmağa imkan verir. Bu barədə "Daily Mail" yazıb. Uşaq müsahibəsində bildirib: "Mən özümü yaxşı, yüngül hiss edirəm, ac deyiləm. Mənə faydalı qida xoş gəlir".**

Ona bədən ölçülərinə uyğun məktəbli forması tikiblər. Uşaq deyib ki, təhsil həyatını bərpa edəcəyi üçün çox məmnundur. Hər zaman ac olan Permana gündə 5 dəfə iri düyü, balıq, ət, şorba porsiyaları ilə qidalanırdı. 10 yaşlı uşaq 230 kilo idi və gəzə, otura bilmirdi. 2016-cı ilin iyununda valideynləri onu həkimlərin nəzarəti altında dietaya cəlb elədilər və 2 ay müddətində uşaq 5 kilo ata bildi. İndi valideynləri ümid edirlər ki, bu sistemlə uşaqları normal çəkiyə qayıda biləcək.



## Hamburgerlərindən diri qurd çıxdı, şirkət 10 dollarlıq hədiyyə verdi



**Amerikanın Kentukki ştatındakı iki "McDonalds"dan alınan yeməklərdən qurd çıxıb. Lenta.ru saytının xəbərinə görə, Meyfild sakini Medison Stivens bildirib ki, 21 avqustda 1 yaşlı oğlu ilə birgə yerli kafeyə gediblər. Sifariş etdikləri hamburgeri yeməyə hazırlaşanda isə onun içindən diri qurd çıxıb.**

Stivens bildirib ki, bununla bağlı "McDonalds"a müraciət edib və kampaniya ona 10 dollar məbləği olan hədiyyə kartı yollayıb. Restoranın daha bir ziyarətçisi Leysi Co Lovett də deyib ki, öz hamburgerində qurd tapıb. Bu hadisə də Meyfild ştatından bir qədər aralıda yerləşən Draffenvilldə, 23 avqustda baş verib. Şirkətin mətbuat xidmətindən bildiriblər ki, bununla bağlı məsələni araşdıracaqlar.




**QOÇ** - Saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyin. Təmkinli olmağa çalışın.

**BUĞA** - Yalnız şəxsi büdcənizi artırmaq istiqamətində müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Axşamüstü sövdələşmələrə getsəniz, aldanacaqsınız.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Gələn ay atacağınız mühüm addımları reallaşdırmaq üçün bu gündən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində daha səmimi olun.

**XƏRÇƏNG** - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

**ŞİR** - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlər və bəzi cəhdlərinizin boşa çıxma ehtimalı var.

**QIZ** - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizi qorumalısınız.

**TƏRƏZİ** - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin sərin keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Əsas enerjinizi istirahətə və sevgiyə yönəldin.

**ƏQRƏB** - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı maneələr çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

**OXATAN** - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahibləriniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

**OĞLAQ** - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

**SUTÖKƏN** - Ümumi mənzərə bir qədər passivdir, daha doğrusu öhdələikləriniz enerjinizdən çox olacaq. Ünsiyyətdə olduğunuz insanlarla mübahisələr, o cümlədən işlə bağlı uğursuzluqlar sizi yora bilər. Bir az dincəlin.

**BALIQLAR** - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla, gələcək uğurlarınıza təkan verəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Telefonla ətir göndərmək mümkün olacaq

**Harvard Universitetinin mütəxəssisləri "ağıllı telefon"lardan ətir göndərməyi mümkün edən cihaz yaradıblar. Harvard Universitetinin professoru Deyvid Edvards və tələbələri Raçel Fayld, Ami Yinin çalışmaları nəticəsində istifadəçilər harda olursa olsun bir-birilərinə onlayn olaraq ətir göndərə biləcəklər.**

Başqa sözlə, professor Edvards və tələbələri tərəfindən ixtira olunan bu cihaz vasitəsilə dünyanın bir ucundan o biri ucuna yediyiniz yeməyin, vurduğunuz ətirin, hətta öz ətrinizin qoxusunu da göndərə bilərsiniz. Şirkət OPhone adlı cihazı 2016-cı il aprel ayından etibarən satışa çıxaracaq. Cihazın qiyməti 199 dollardan başlayacaq.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750

YENİ MÜSAVAT
N 191 (6512) 30 avqust 2016



# Broker Əbülfəzin həyatı

Zamin HACI
zaminhaci@mail.ru

**Bugünlərdə xarici qəzetdə prezidentin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirovun intervüsü çıxıb. Orda bir etiraf mənim çox xoşuma gəldi. Natiq müəllim məmnuniyyətlə qeyd edib ki, 2016-cı ilin yanvarına qədər ölkəmizə girən hər 10 xarici malın yalnız 3 ədədi gömrükdə qeydə alınırmış. Yalnız bu 3 maldan rüsum tutulub dövlət büdcəsinə keçirmiş. Qalanları mafiyanın, gizli iqtisadiyyatın, oğruların cibinə axırmış. Deyir, yanvardan bəri bu məsələni həll etmişik, indi hər məhsuldan qanuni rüsum alınır, gömrükdə korrupsiya yoxdur. Hətta tacirlər narazılıq edirmiş, deyirlərmiş əvvəl ödədiyimiz rüşvət indiki rüsumdan az idi, bu nə iş idi başımıza gəldi. Ancaq Natiq müəllim sevinir, çünki əsas dövlətçiliyin qalib gəlməsidir.**

Doğrusu, yanvarda gömrükdə nə olub, ümumiyyətlə, Natiq müəllim iqtisadi islahatlar üzrə köməkçi qoyulandan bəri ölkəmizdə hansı iqtisadi islahatlar baş veribdir, mən bunu deməkdə çətinlik çəkirəm. Çünki belə islahat görmürəm. Gördüyüm odur ki, iqtisadi vəziyyətimiz get-gedə lap pisləşir. Manat reanimasiyada can verir, qeyri-neft sektoru doğulmadan ölüb, kənd təsərrüfatı dağılıb getməkdədir. İnflyasiya uca millətin belinə minib çapmaqdadır, qiymətlər günbəgün deyil, saatbasaat artır.

Ancaq bunlara artıq öyrəncəliyik, 90-cı illərdə milləti çoxlu danışıb yola vermək olurdusa, indi də uzağı üstünə qışqırıb rahatlamaq mümkündür. Ta bu ilin altı ayında 110 qadın, 28 uşaq niyə intihar edib, bunu araşdırmaq lazımsızdır. Əsas odur dünyanın ikinci ən uzun bayraq dirəyi bizdədir. Məni Natiq müəllimin statistikasının tarixçəsi düşündürdü. Bəyəm 2016-cı ilin yanvarından qabaq Azərbaycanda hakimiyyət kimin əlində idi ki? Misal üçün, Natiq müəllim özü şəxsən düz 7 il - 2009-cu ilin yanvarından 2016-cı ilin yanvarına qədər Azərbaycan Respublikası vergilər nazirinin birinci müavini işləyəndə gömrükdəki bu qanun pozuntularını görmürdümü?

Əlbəttə, görə bilməzdi, insafən bunu yazmalıyıq. Ona görə yox ki, Natiq müəllim vergidə işləyib, gömrükdə başqası işləyirdi. Yox, ona qalsa bizdə tok işinə baxıb dəvə saxlayan, həm adam döyən, həm də o adamlara öz şadlıq sarayında toy eləyən məmurlar vardır. Sadəcə, 2016-cı ilin yanvarına qədər gömrük sahəsindəki o dərəbəyliyi keçmiş MTN eləyirmiş. Dünən oxudum bu barədə. Sən demə, Broker Əbülfəz adında bir nəfər varmış, Gömrük Komitəsindən 2 dəfə artıq reketdən ibarət dəstə yaradıbmış. Təsəvvür edin, Dövlət Gömrük Komitəsinin 2700 işçisi olduğu halda, Broker Əbülfəzin 5000 nəfərlik “Trans Broker” adlı bandası varmış. *(Bu trans ayrı transdır, pis başa düşməyin)*. Broker Əbülfəzin bu dəstəsi düz 20 ilə yaxın müddətdə gömrükdə insanları soyubdur.

İndi həmin MTN ləğv olunub, neçə soyğunçu general tutulub, Broker Əbülfəzin bandası dağlara çəkilib, yanvardan bəri də bütün rüsumlar büdcəyə axır. Həmin 20 illik soyğunçuluq müddətində ölkəmizə rəhbərlik edən İsa Qəmbər, Əli Kərimli, Nemət Pənahlı, Rüstəm İbrahimbəyov, Cəmil Həsənli, Sərdar Cəlaloğlu, Bricit Bardo, Lex Kaçinski, Nelson Mandela, Angela Markel, Barak Obama və sairə yoldaşlara üzümü tutub demək istəyirəm: niyə utanmırsınız? Ayıb deyildimi 20 il millətin gömrük rüsumların alıb cibişdana qoymusunuz, varlanmısınız, pula pul demirsiniz? Vallah, bizim Qarabağ dərdimiz var, qəzeti ermənilər də oxuyur, ona görə ürəyimdən keçən sözlərin çoxunu bura yaza bilmirəm. Yoxsa sizə elə sözlər yazardım yeddi qatınızdan keçərdi.

Çox məxfi mənbədən aldığım xəbərə görə həmin bu Broker Əbülfəzin fəaliyyətinə rəhmətlik Əbülfəz Elçibəy də xeyir-dua veribdir. 3-4 il öncəyə qədər gömrükdən yığılan pullar AXCP sədrinin qəbrinə əklil alınmasına sərf edilirmiş. Hətta etibarlı qaynaq deyir ki, Broker Əbülfəz öz adını da Əbülfəz Elçibəyin şərəfinə dəyişdiribdir, uşaqlıq adı Əbülfət imiş.

Ümumiyyətlə, bunun hamısını eləyən yevreylərdir.

# Eldar Namazov: “Əli İnsanovdan mesaj gəlirdi ki, buna ehtiyac yoxdur”

## Tanınmış politoloq “Yeni Müsavat” qəzetinə danışdı: “Azadlığa çıxmağına 57 gün qalmış yeni cinayət işinin açılması Əli İnsanov problemini Əli İnsanov fenomeninə çevirir”



**Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Eldar Namazov “Yeni Müsavat”ın qonağı olub, günün aktual mövzuları ilə bağlı sualları cavablandırıb. Eldar Namazovla müsahibənin birinci hissəsini təqdim edirik.**

***- Eldar bəy, Sizi siyasi səhnədə ardıcıl görmək mümkün olmur. Səbəb nədir, siyasi səhnədə prosesmi yoxdur, yoxsa Eldar Namazov ölkədəmi olmur?***

- Sonuncu dəfə mən çox önəmli bir hadisə ərəfəsində xaricə getməli oldum. Rauf bəy, Sizin 50 illik yubileyinizdə iştirak etməyi planlaşdırırdım. Bir gün qalmış səhhətimlə bağlı təcili xaricə çıxmalı oldum. Ona görə də gec də olsa Sizi və kollektivinizi yubileyiniz münasibətilə təbrik edirəm. Ümumiyyətlə, son dövrlər mən yalnız “Yeni Müsavat” qəzetində tez-tez qonaq oluram. Bunun da səbəbi var. Əməkdaşlıq edəndə, mənim media quruluşundan iki əsas şərtim olur. Birincisi, bu mətbu orqan cəmiyyət tərəfindən tanınsın, oxunaqlı olsun. Yəni mən müsahibəni başqa yerdə verirəm 500 adam oxuyur, ancaq “Yeni Müsavat”a verirəm 20 min oxunur. İkincisi də, həmin mətbu orqan ola bilsin ki, kiminsə xoşuna gəlir, kiminsə xoşuna gəlmir, ancaq o, hər kəsə fikrini ifadə etməyə imkan yaratmalıdır. “Yeni Müsavat” və musavat.com saytı məhz bu cür media orqanıdır. Burada hər hansı bir materialla razı deyilsənsə, sənin hüququnu tanıyırlar ki, səhərisi gün həmin tribunadan çıxış edib, öz mövqeyini çatdırasan. Əsas amil budur. Ona görə də sizi təbrik eləməklə yanaşı, sizin yaratdığınız media orqanını təbrik edirəm. O ki qaldı mənim az görünməyimə, ölkədə az olmağıma, bu, mənim səhhətimlə bağlıdır. Mən iki gündən sonra yenə də, ən azı, 4-5 günlük səfər etməli olacağam ki, müalicə prosesinə bir nöqtə qoyaq.

***- Ölkə gündəmini izləyirsinizmi?***

- İmkan dərəcəsində izləyirəm.

***- Azərbaycan üçün daxili siyasətin indi ən mühüm hadisəsi qarşıdakı referendumdur. Referenduma hakimiyyətin hazırlıqlarını necə qiymətləndirirsiniz? Sizcə, iqtidar niyə qəfildən referenduma getdi? Əsas məqsəd nə ola bilər? Türkiyədəki 15 iyul çevriliş cəhdinin bu qərara təsiri haqqında da həm xarici KİV-lərdə, həm ölkədə sosial şəbəkədə iddialar qeyd edildi. Bu barədə fikriniz necədir?***

- Ümumi mənzərə haqqında məndə informasiya var. Referendumla bağlı saytların birində hörmətli sabiq baş prokuror İlyas İsmayılovun yazısına rast gəldim. İlyas müəllimin hüquqi məsələləri təhlili mənim fikirlərimlə üst-üstə düşürdü. Həqiqətən də referendumla, oraya çıxarılan məsələlərlə bağlı çoxlu sayda hüquqi və siyasi iradlar mövcuddur. Şəxsən mən Azərbaycanda idarəçilik sisteminin çox ciddi dəyişikliyə ehtiyacı olduğunu çoxdandır düşünürəm. Dəyişmənin əsas yollarından birini vitse-prezident postunun təsis olunmasında görürəm. Bununla yanaşı, Nazirlər Kabinetinin ümumiyyətlə ləğv olunması, paralel strukturun aradan qaldırılması lazımdır. Təxminən ABŞ-da olduğu modelin tətbiqini doğru sayıram. ABŞ-da idarəetmə sistemi daha sadədir. Nazirlərin sayı Azərbaycandakından azdır. Nazirlər Kabineti, baş nazir orada yoxdur. Vitse-prezident vəzifəsinə seçki keçirilməlidir və həmin vəzifəyə şəxs sərəncamla yox, xalqın səs verməsi yolu seçilməlidir. Azərbaycanda keçiriləcək referendumda isə vitse-prezident vəzifəsinə təyinat məsələsi qoyulur...



## “Ölkədə ciddi islahatlar aparılması üçün 3 əsas amil olmalıdır”

***- Referendum məsələsinə Qərbdən ciddi reaksiya olmadı, heç daxildən də ciddi təpki müşahidə edilmədi. Səbəb nədir?***

- Qərbin soyuqqanlığı bir anlaşmanın olması ilə bağlı ola bilər. Ancaq mən anlaşmadan daha çox başqa məqam görürəm. Yəqin təpkinin nəyisə aradan qaldıracağına inam azdır. Müxalifətdəki duruma gəlincə... Müxalifət qüvvələrinin vahid güc mərkəzi olmadan ayrı-ayrı partiyalar gedən prosesə ciddi təsir göstərə bilməzlər. Burada həm Azərbaycanın öz daxili şərtləri, subyektiv səbəblər də rol oynayır, həm də obyektiv səbəblər təsir göstərir. Bölgədə, dünyada gedən proseslərin təsiri var. Biz indi o mərhələdəyik ki, demokratiya dalğası bir dəfə irəli gedəndən sonra geriləmə prosesi başlanıb. Təkcə Azərbaycanda yox, başqa ölkələrdə də belə bir geriləmə müşahidə olunur. Bu, tarixi bir prosesdir. Həmişə belə olub ki, demokratiya dalğasının ardınca geriləmələr olub, ancaq onun ardınca daha böyük demokratiya dalğası gəlib. Proses həmişə belə gedib... Xoşumuza gəlsə də, gəlməsə də indi yaşadığımız dövr dünyada demokratiya üçün ciddi sınaq dövrüdür.

## Eldar Namazov: “Türkiyədən Azərbaycana gəlib orduya təlim keçən zabitlər arasında Gülən hərəkatı üzvlərinin olduğu və həmin zabitlərin burada təbliğat aparması haqqında informasiyalar daxil olmuşdu”

***- Regionda çox ciddi sınaq 15 iyulda Türkiyədə baş verdi. Bundan sonra orada gedən proses Azərbaycana da sıçradı-həbslər, telekanal bağlanması, qəzet yazıları və sair. Hədəfdə olan qüvvə - Fətullah Gülən tərəfdarları Azərbaycanda uzun müddətdir mövcuddurlar. Hətta siz prezidentin köməkçisi olduğunuz zamanlarda artıq onlar Azərbaycana gəlməyə başlamışdılar. Hər halda, sizinlə də yolların kəsişməsi olub. O zaman onlar təşkilatlanmağa başlamışdılarmı, hökumətlə münasibətlər var idimi?***

- O dövrdə Türkiyədə hakimiyyətdə olan qüvvələr Gülən hərəkatına çox ehtiyatla yanaşırdılar. Sağ mərkəzi qüvvələr Tansu Çillər, Məsud Yılmaz, Süleyman Dəmirəl dövrü idi. Bu qüvvələr sağ mərkəzçi qüvvələr olmaqla yanaşı, Qərblə sıx əməkdaşlıq edən qüvvələr idi və Gülən hərəkatı ilə ehtiyatlı davranırdılar. Ərdoğan hakimiyyətə gələndə isə fətullahçılar faktiki olaraq hakimiyyətə ortaq oldular. Azərbaycana gəldikdə, mən prezidentin köməkçisi olanda fətullahçılar haqqında ilk dəfə olaraq mənə gələn informasiyalar təhsil sistemi ilə əlaqəli deyildi. Mənə gələn informasiyalar ordu ilə bağlı idi. Türkiyədən Azərbaycana gəlib orduya təlim keçən, burada işləyən, müşavir görəvində olan zabitlər arasında Gülən hərəkatının üzvlərinin olduğu və həmin zabitlərin burada təbliğat aparması haqqında informasiyalar daxil olmuşdu. 1990-cı illərin ortalarından söhbət gedir.

***- Bəs bu informasiyaları aldıqdan sonra nə etdiniz?***

- Lazımi tədbirlər görülürdü. Xatırlayırsınızsa, hərdən müəyyən zabitlər qrupu vaxtından əvvəl Azərbaycanı tərk edirdi... Bunun əsas səbəbləri barədə informasiya cəmiyyətə çatdırılmırdı. Hətta türk zabitlərinin vaxtından əvvəl ölkədən geri göndərilməsinə Azərbaycanda etiraz edənlər olurdu. Halbuki həmin zabitlərin vaxtından əvvəl ölkəni tərk etmələri görülən ehtiyat tədbirləri idi.

***- Türkiyədə qeyd etdiyimiz hadisələrin nəticəsi olaraq, ANS telekanalı bağlandı. Sizcə, ANS-in yenidən efirə qayıtması şansı varmı və ANS-in Türkiyədəki bir hadisəyə görə bağlanmasını bir politoloq kimi nə cür dəyərləndirirsiniz?***

- Mən bu hadisəni yanlış addım sayıram. Məncə, Gülənlə müsahibə ANS-in bağlanmasının formal bir səbəbi idi. Ona görə ki, bundan əvvəl də bir neçə dəfə ANS-in bağlanmasına cəhd olmuşdu, bir dəfə bağlamışdılar da. Bu dəfə yəqin hesab ediblər ki, fürsət yaranıb, prosesi axıra çatdırmaq lazımdır. Bunu da etiraf etmək lazımdır ki, ANS əvvəlki ANS deyildi. 1990-cı ilin əvvəllərindəki xidmətlərini mən heç vaxt unutmuram. Son dövrlərdə məhdudiyyətlər içində işləyirdilər.

***- Son neçə ildə ANS-in efirində olmamısınız?***

- Tutaq ki, ANS 2-3 ildə bir dəfə bizi efirə dəvət edirdi, ancaq o biri kanallar 10-15 ildir müstəqil adamları, müxalif mövqeli siyasətçiləri efirə buraxmır. Hər halda, ANS maraqlı kanal idi. Onu formal səbəblərlə bağlamaq lazım deyildi.

***- Fətullahçıların Azərbaycandakı siyasi lideri kimi Elnur Aslanovun adı çəkilir. Siz prezident köməkçisi işləyən zamanlarda onu tanıyırdınızmı, administrasiyada hansı vəzifədə işləyirdi?***

- Elnur Aslanovu o zaman tanımırdım. O dövrdə çox gənc olardı. Onunla tədbirlərdə və iclaslarda rastlaşmamışam.

***- Rəbiyyət Aslanovanı tanıyırdınızmı?***

- Bəli. Uzaqdan-uzağa tanıyırdım. Onu da deyim ki, o dövrlərdə Azərbaycanda bir çox məmurlar çalışırdılar ki, Gülən xətti ilə açılan təhsil ocaqlarına, qurumlara yaxın olsunlar. Hətta bir sıra məmurlar arasında Gülən xətti ilə açılan təhsil ocaqlarına, təsisatlara yaxın olmaq uğrunda müəyyən bir rəqabət də gedirdi. Mən bunu ideoloji səbəblərlə yox, daha çox maddi səbəblərlə bağlayırdım. Bəzi Orta Asiya ölkələrində bu gün də fətullahçılar böyük nüfuza malikdirlər. Qırğızıstanda çox ciddi təsir imkanları var. Hətta Qırğızıstan hökuməti ilə Ankara arasında buna görə soyuq münasibətlər mövcuddur.

***- Sizcə, Gülən hərəkatının bir proyekt olaraq müəllifi kimdir?***

## “Dəyişmənin əsas yollarından birini vitse-prezident postunun təsis olunmasında görürəm, Nazirlər Kabinetinin ümumiyyətlə ləğv olunması, paralel strukturun aradan qaldırılması lazımdır”

- Proyektin müəllifi yəqin ki, türklərdir. Ancaq bundan öz xeyirlərinə çalışan dövlətlər də var. Fətullah Gülənin ABŞ-da yaşamağı və oradan prosesləri idarə eləməyi onu göstərir ki, Amerikanın da təsiri, marağı var. Ancaq amerikanların da burada öz məntiqi var. Onlar İslam dünyasında ekstremizmdən, cəhalətdən uzaq, daha çox təhsilə, elmi inkişafa diqqət yetirən bir hərəkat kimi yanaşıblar Gülən hərəkatına. Amerikanlar buna bu cür baxıblar ki, müsəlman dünyasında İŞİD də var, FETÖ-çülər də var. İŞİD-in əməlləri ilə Gülənin təhsil ocaqlarını tərəzinin gözlərinə qoyurlar və deyirlər ki, bax bu, müsbət fenomendir. Ancaq hər bir ölkə də çalışır ki, onun quruluşuna, siyasətinə müdaxilə etmək istəyən amilləri aradan götürsün. Ona görə də Türkiyədə və başqa ölkələrdə FRTÖ-yə də müqavimət təbiidir.

***- Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyev indi ölkənin siyasi həyatında ən çox “bomba” partladan biridir. Həbsxanadadır və məhkəməsində çox ciddi açıqlamalar verir...***

- Mən işlədiyim dövrdə o elə də tanınmış bank işçisi deyildi, şəxsən tanımırdım. Ancaq onun adı keçən prosesləri izləyirəm. Mənim üçün maraq doğuran açıqlamalar oldu. Bu, Azərbaycan reallığını çılpaqlığı ilə göstərən açıqlamalardır. Onun özü də, yaxınları da deyirlər ki, o, maliyyə naziri Samir Şərifovun göstərişlərini yerinə yetirmirdi, indi Samir Şərifov ondan qisas alır. Ölkənin maliyyə siyasətini maliyyə naziri həyata keçirməlidir və dövlətin nəzarətində olan hər bir bankın da borcudur ki, maliyyə nazirinin tapşırıqlarını yerinə yetirsin. Cahangir Hacıyevin maliyyə nazirinə tabe olması onun vəzifə borcu idi. Əgər Samir Şərifov düzgün siyasət yeritmirdisə, bankın rəhbəri olan Cahangir Hacıyev ölkə prezidentinə müraciət edə bilərdi, əsaslandıra bilərdi ki, nazirin addımları yanlışdır, istefa verməlidir. Yaxud da özü istefa verə bilərdi. Tabe olmamaq, saymamaq, lakin heç bir qanuni addımlara getməmək isə doğru yol deyil. Mən hesab edirəm ki, gedən proseslərdə maliyyə naziri ilə onun münasibətləri əsas amil olmadı. Onun vurulması yaxın qohumu, himayədarı olan sabiq milli təhlükəsizlik nazirinin vurulması ilə bağlı idi. Bu hadisələrin ortaya çıxması ölkədə idarəçilik sistemində böyük problemlər olduğunun göstəricisidir. Əgər bir il bundan öncə iş adamları arasında sorğu keçirsəydiniz ki, sizin işinizə ən çox mane olan hansı dövlət qurumu, amillər hansılardır, ola bilsin o zamankı MTN sırada 3-cü və ya 4-cü olardı. İş adamları və biznes mühitinin yaradılması istiqamətində elə ciddi problemlər var ki, bu gün də qalır. Bu problemlər aradan qaldırılmalıdır.

***- İqtidara yaxın adamlar, YAP deputatları isə son günlər iddia edirlər ki, referendumdan sonra inqilabi dəyişikliklər olacaq. "ASAN xidmət" modeli icra strukturlarına, bütün idarəetməyə tətbiq olunacaq...***

- Ölkədə ciddi islahatlar aparılması üçün 3 əsas amil olmalıdır. Birincisi, ölkəyə rəhbərlik edən adamların islahatlara getmək üçün siyasi iradəsi, heç bir kənar təsir olmadan şəxsi istəyinin olması. İkincisi, islahatçı komandanın olması. Üçüncü amil ölçülüb-biçilmiş ardıcıl proqramın olmasıdır. Düzgün addımları düzgün sıralamasan, birinci atılmalı olan addımın əvəzinə 3-cünü atsan, sonra ikinci, sonra beşinci addımı atsan bu, tam əks nəticə verə bilər. Mən köklü islahatlar aparılmasının tərəfdarıyam. Ancaq hazırda belə islahatların aparılacağı mənə inandırıcı görünmür. Kosmetik dəyişikliklərlə köklü islahatlara getmək mümkün deyil.

***- AXCP sədri Əli Kərimli bildirib ki, onu həbs edə bilərlər. Əsas kimi də ətrafındakı bəzi adamların FETÖ-çü kimi həbs olunmasını qeyd edir. Amma Əli Kərimli və onun çevrəsindəki adamların hakimiyyət tərəfindən basqıya məruz qalmasına cəmiyyətdən reaksiyalar çox zəif oldu. Bunun səbəbi nədir, Əli Kərimli təkmi qalıb? Adam bəyan edir ki, onu həbs edə bilərlər. Amma heç bir siyasi partiya və təşkilatlardan reaksiya olmadı. Bu, Əli Kərimliyə münasibətdirmi, yoxsa ümumiyyətlə, siyasi səhnədə baş verənlərə etinasızlıq var?***

- Əli Kərimli bir fərziyyə kimi həbs olunacağını deyib. Mən bunun dəqiq səbəblərini bilmirəm. Amma real hadisələr var. Məsələn, 11 ildir dustaq həyatı yaşayan akademik Əli İnsanova qarşı yeni cinayət işinin açılması real, ciddi hadisədir. İlqar Məmmədov Avropa Məhkəməsinin qərarına baxmayaraq hələ də həbsdə saxlanır... Əli İnsanovun həbsini, bu qədər həbsdə saxlanmasını, indi ona qarşı atılan addımı da yanlış hesab edirəm. Hakimiyyətin daxilində bir vaxtlar Əli İnsanov amili var idi. Bu amili siyasi yollarla həll etmək lazım idi. Hakimiyyətin atdığı addımlar nəticəsində isə Əli İnsanov məsələsi gündəmə gəldi. Avropa Şurası onu siyasi məhbus elan elədi, Avropa Məhkəməsi onun azadlığa buraxılması üçün qərar çıxardı, Əli İnsanov azadlığa buraxılmadı. Nəticədə Əli İnsanov məsələsi oldu Əli İnsanov problemi. İndi onun azadlığa çıxmağına 57 gün qalmış yeni cinayət işinin açılması Əli İnsanov problemini Əli İnsanov fenomeninə çevirir...

***- Əli İnsanovun nəyi fenomendir? Ümumiyyətlə, məlum olur ki, Əli İnsanov əslində bir mif imiş, heç bir ictimai gücü yox imiş. Məsələn, bizim qəzetin əməkdaşları dünən Qərbi Azərbaycandan olan tanınmış, bir zamanlar onun xəttində olan adamları Əli İnsanova cinayət işi açılması ilə bağlı danışdırmaq istəyib, lakin onların heç biri danışmayıb. Bu, onu göstərir ki, Əli İnsanovun gücü hakimiyyətin ona verdiyi güc imiş. Amma həm də maraqlıdır ki, bu reallıq ortada olsa da, sanki iqtidar da ondan çəkinir.***

- Güman etmirəm ki, Əli İnsanovun dəstəyinin, gücünün olmadığı barədə qənaət düzgün qənaətdir. İndi çoxları siyasi proseslərə mövqe bildirməkdən çəkinirlər. Diqqət edirsiniz, hər dəfə əfv fərmanı öncəsi mediada Əli İnsanovun böyük gücü, onun çıxacağı halda müxalifətin lideri olacağı kimi fikirlər hər gün yazılır. Nəticədə hakimiyyət Əli İnsanovu azad etmir. Bəlkə elə bu səbəbdən o adamlar Əli İnsanovla bağlı danışmaq istəmirlər. Bu taktika ilə Əli İnsanovun azad olunmasına yardımçı olmaq istəyirlər? Bir çoxlarında isə qorxu hissi ola bilər. Ancaq hər bir halda, Əli İnsanovun tərəfdarları kifayət qədərdir.

***- Siyasi səhnədə Əli İnsanov üçün fədakarlıq edəcək siyasi fiqur yoxdur...***

- Məndə olan məlumata görə, indiyə qədər bir neçə dəfə Əli İnsanovu müdafiə komitəsinin yaradılması haqqında ümumi yığıncaqlar olub. Ancaq hər dəfə Əli müəllimin özündən mesaj gəlib ki, buna ehtiyac yoxdur.

***- Əli İnsanovu bu qədər cidd-cəhdlə müdafiə etməyiniz nədən qaynaqlanır? Onunla əlaqələriniz varmı?***

-...

*(davamı gələn sayımızda)*

Hazırladı: Etibar SEYİDAĞA





## “Bir sıra məmurlar arasında Gülən xətti ilə açılan təhsil ocaqlarına, təsisatlara yaxın olmaq uğrunda müəyyən bir rəqabət də gedirdi”